Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

14-16 SENTYABR 2019-cu il

№ 163 (4061)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# PAŞİNYAN EYNİ VAXTDA PUTİN VƏ RUHANİDƏN ZƏRBƏ ALA BİLƏR...

səh. 8

Azərbaycanın Ermənistana son xəbərdarlıq bəyanatları daha çox dəstək jestləri tapır — səh. 9

ABŞ kəşfiyyat və antiterror məqsədləri üçün Azərbaycana 10 milyon yardım ayırır — səh. 6

Azərbaycanla Türkiyənin KTMT-də eyni vaxtlı müşahidəçilik statusu Ermənistanın "kürkünə birə salıb"... — səh. 5

"Əxlaq polisi" adlı qondarma qurum söhbətləri ilə DİN-in ciddi fəaliyyətinə qarşı işləyənlər... — səh. 7

Manat dollar və avro qarşısında kəskin bahalaşacaq - ABŞ və Avropa Bankı yeni prosesə başlayır — səh. 10

"Kontakt Home"un iki kampaniyasına "qeyri-şəffaflıq ittihamı" - şirkətin öz reaksiyası... — səh. 15

Banklar kiçik sahibkarlıqla məşğul olanlara niyə kredit ayırmır? — səh. 12

Şəriət necə baxır - Məhərrəmlikdə gözəllik salonları aşıb-daşır... — səh. 15

## «Meydan TV»nin Parisdə erməni lobbisi tərəfindən maliyyələşdirildiyi sübut olunur - məşhur Emin Hüseynli «hücumda»...

səh. 4



## Radikalların yeni izahı - hakimiyyətin bütün tədbirlərinə «bizdən qorxdu» yarlığı vurulur...

səh. 5

## Şəhid pilotun xanımının adından profil açaraq pul yığan dələduzlar peyda olub

səh. 3



## Xarici qrantların tör-töküntüsünün ən stajlı «yeyəni» Azərbaycan jurnalistlər ordusunu təhqir etdi...

səh. 6

səh. 11

Mikayıl Cabbarov gəlirlərini tam şəkildə bəyan etmək istəməyənlərə xəbərdarlıq etdi



səh. 2

Azərbaycana "xarici qrant yeyiciliyini" gətirmiş Rəşid Hacılı kimilərin əsl üzünü açmaq vaxtıdır



səh. 4

Emin Həsənli Türkiyə və Azərbaycanın hərbi yönümlü qeyri-hökumət qurumlarını birləşdirir...



səh. 14

Əbülfəs Qarayevin "media tövsiyələrinə" sənət adamlarının reaksiyaları...



səh. 13-14

Daha bir bədii qiraət ustasını İncəsənət Universitetindən qaçırdılar - Məleykə xanım...





# Prezident İlham Əliyev Nərimanovda yenidən qurulan yolların açılışını etdi, Suraxanıda məktəbdə yaradılan şəraitlə tanış oldu

**Prezident İlham Əliyev sentyabrın 13-də Bakı şəhərinin Nərimanov rayonunda yenidən qurulan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yolların açılışında iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçısına məlumat verib.

Prezident həmin gün Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib, Suraxanı rayonunda əsaslı şəkildə yenidən qurulan 208 nömrəli məktəbdə yaradılan şəraitlə tanış olub.

# Mehriban Əliyeva Kürdəxanıda yeni yaradılan istirahət parkında oldu, 113 saylı məktəbin təmir sonrası vəziyyətilə maraqlandı



**Birinci vitse-prezident Mehriban Əliyeva sentyabrın 13-də Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində yeni salınan istirahət parkında yaradılan şəraitlə tanış olub.**

Dörd ay əvvəl paytaxtın Sabunçu rayonunun Kürdəxanı qəsəbəsinə gələn Birinci vitse-prezident burada görülməsi vacib olan sosial və infrastruktur işlərinin qısa vaxt ərzində həyata keçirilməsi ilə bağlı göstərişlərini vermişdi. Bunlardan biri qəsəbə sakinləri üçün salınan yeni istirahət parkıdır.

Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev parkda yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya görülən işlər barədə məlumat verib.

Həmin gün Mehriban Əliyeva Kürdəxanıda 113 nömrəli məktəbdə yenidənqurmadan sonra yaradılan şəraitlə də tanış olub.

## Tovuzdakı qətlin araşdırmasını Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi aparır...

**Tovuz rayon sakini Firudin Ələkbərlinin qəsdən öldürülməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə istintaqın davam etdirilməsi Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinə tapşırılıb. Bu barədə özəl olaraq "Trend"-ə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib.**

E.Sultanovun sözlərinə görə, iş üzrə bütün halların tam, hərtərəfli və obyektiv araşdırılması istiqamətində zəruri istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Xatırladaq ki, sentyabrın 13-də səhər saatlarında 1959-cu il təvəllüdlü Əli Şamıyev Tovuz rayonunda nümayəndəlik fəaliyyəti ilə məşğul olan 1963-cü il təvəllüdlü Firudin Ələkbərlini Tovuz şəhərində şəxsi münasibətlər zəminində odlu silahdan atəş açmaqla qəsdən öldürüb. Faktla bağlı dərhal hadisə yerinə polis və prokurorluq orqanları əməkdaşlarının iştirakı ilə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin olunub, hazırda zəruri istintaq tədbirləri davam etdirilir. Faktla bağlı Tovuz rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) və 228.1-ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddələri ilə cinayət işi başlanıb.

Ə.Şamıyevin F.Ələkbərlini qəsdən öldürməsinə kifayət qədər şübhələr olduğundan o şübhəli şəxs qismində tutulub.

# Azərbaycana "xarici qrant yeyiciliyini" gətirmiş Rəşid Hacılı kimilərin əsl üzünü açmaq vaxtıdır



**Azərbaycan oxucusunun hansısa bir qəzet-jurnal məqaləsinin müəllifi kimi xatırlamadığı, ümumiyyətlə hansısa və ya jurnalda nə vaxtsa jurnalist, ya baş redaktor kimi işləyib-işləmədiyi bilinməyən Rəşid Hacılı deyilən biri bu gün bütün jurnalistləri təhqir edən karikatura paylaşıb, həm də üstünün yazısı ilə...**

Adam yüzlərlə tanınmış əsl qələm sahibinin təmsil olunduğu jurnalistlər ordumuzu bir parça sümüyə doğru yürüyən əcaib məxluqlar kimi təqdim edib. Ömrünün bircə gününü belə Azərbaycan mediasına bağlamamış birinin bu qədər qeyri-etik münasibətinin üzərindən sükutla keçilməsi özünə hörmət qoyan heç bir jurnalistə yaraşdırmazdım. Əsl tərbiyəsizlik nümunəsi olan bu hərəkətə layiqli və kəskin qiymətin verilməsini hər bir jurnalistdən gözləyirəm.

Adamın başımı xarab olub, Azərbaycan jurnalistlərini bu qədərmi şərəfsiz və ləyaqətsiz sayır, məsuliyyət hissindən bu qədərmi uzaq düşüb, neçə illərin "atılmış" həyat tərzindən sonra insanlıq hissini bu qədərmi itirib - sualların cavabını hər bir jurnalistin cəsarətli və prinsipial reaksiyasında tapa biləcəyimə ümid edirəm.

Azərbaycanda hansı ermənidən gəldiyi bilinməyən ilk media qrantlarının artıq-urtuğu ilə böyüyüb ailə-uşaq sahibi olan belə stajlı qrantyeyənlərin əsl sifətini göstərmək vaxtıdır.

*Aydın QULİYEV*

# Azərbaycan Ordusu dörd gün davam edəcək genişmiqyaslı təlimlərə başlayır

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən sentyabrın 16-dan 20-dək Müdafiə nazirinin rəhbərliyi altında Azərbaycan Ordusunun müxtəlif qoşun növləri, qismləri, hərbi birlik və birləşmələrinin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək.**

Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, təlimin mövzusunda dağlarda əkshücum əməliyyatının təşkili və keçirilməsi, düşmən qruplaşmasının darmadağın edilməsi məqsədilə qabaqlayıcı zərbələrin endirilməsi və azad edilmiş ərazilərdə əlverişli hədlərin tutulması üzrə fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

Təlimlərə 10.000 nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

Mürəkkəb şəraitdə, dağ-meşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçiriləcək təlim zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətin təşkili üzrə tapşırıqlar icra ediləcək.

Təlimdə əsas diqqət qoşunların idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsinə, həmçinin döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə yönəldiləcək.

Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçiriləcək.

# Azərbaycan XİN Paşinyanın son məsuliyyətsiz bəyanatlarını alt-üst etdi - ABŞ və Rusiyadan da reaksiyalar var

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) açıqlama yayıb. XİN-dən baki-xeber.com-a daxil olan açıqlamada deyilir: "Ermənistanın təcavüzkar siyasətinin davam etməsi və hərbi işğala əsaslanan mövcud status-quo vəziyyətinin möhkəmlənməsinə yönəlik addımları, o cümlədən bu ölkə rəhbərliyinin son dövrdə səsləndirdiyi anneksionist bəyanatlar əsasən daxili auditoriyaya yönəlmiş olsalar belə, bölgədə vəziyyətin kəskinləşməsinə xidmət etdi.**



Onlar, beynəlxalq hüququn açıq şəkildə tapdalanması ilə yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq vasitəçilərin uzun illər apardığı səyləri demək olar ki, şübhə altına alan çox təhlükəli bir gərginlik yaratdı.

Azərbaycan Hökuməti Ermənistan rəhbərliyinin məsuliyyətsiz ritorikasını münaqişənin həlli üzrə danışıqlar prosesini pozmaq cəhdi kimi dəyərləndirərək, bununla bağlı vaxtında qəti etirazını bildirdi və məsələ beynəlxalq təsisatların diqqətinə çatdırıldı. Xarici İşlər naziri tərəfindən BMT və ATƏT-in Baş katiblərinə, ATƏT-in Minsk Qrupunun həmsədrlərinə, eləcə də Minsk Qrupu üzv ölkələrinin xarici işlər nazirlərinə ünvanlanmış məktublarda Azərbaycan ərazilərinin işğalı və bu ərazilərdə tarixən yaşayan azərbaycanlıların qanlı etnik təmizlənməsi ilə nəticələnən Ermənistanın dövlət səviyyəsində işğalçılıq siyasətinin bu ölkə rəhbərliyinin son bəyanatlarında açıq şəkildə etiraf edildiyi vurğulandı və hərbi işğalın doğurduğu beynəlxalq hüquqi məsuliyyət məsələlərinə diqqət yönəldilərək, beynəlxalq ictimaiyyətin qəti mövqeyinin işğalçı Ermənistanın özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli olduğu qeyd edildi. Xarici İşlər Nazirliyi tərəfindən, həmçinin Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatının bütün üzv dövlətlərinə bu xüsusda eyni məzmunlu notalar ünvanlandı.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü öz şərhlərində mövcud vəziyyətlə bağlı narahatlığını ifadə edərək, verilən bəyanatların münaqişənin dinc yolla nizamlanmasına yönəldilmiş ümumi səylərin kontekstinə uyğun gəlməli və həssas danışıqlar prosesində tarazlığın pozulmasına gətirməməli olduğunu bəyan etdi. ABŞ-ın Azərbaycandakı səfiri Ermənistan Baş nazirinin bəyanatına münasibət bildirərək, şiddəti təbliğ edən və gərginliyi artıran ritorikadan uzaq olmağa və tərəfləri dialoq prosesinə diqqət yetirməyə çağırdı.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu həlli üzrə Minsk Qrupunun həmsədr ölkələrinin vasitəçiliyi ilə uzun illərdir ki, aparılan danışıqların mahiyyətini münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq təşkilatların qərar və qətnamələri, ilk növbədə isə BMT TŞ-nin məlum qətnamələri əsasında həllinin təmin edilməsi təşkil edir. Bu isə həmsədr ölkələrin bəyanatlarında, o cümlədən 9 mart 2019-cu il tarixli, dəfələrlə qeyd edildiyi kimi, Azərbaycanın işğal edilmiş ərazilərinin boşaldılması və bu torpaqlardan didərgin salınmış insanların öz evlərinə təhlükəsiz və ləyaqətlə geri dönüşünün təmin edilməsini nəzərdə tutur.

Azərbaycanın ərazilərini hərbi işğal edərək bu ərazilərdəki yerli azərbaycanlıları qanlı etnik təmizləməyə məruz qoyan Ermənistanın, beynəlxalq hüququn öz müqəddəratını müəyyən etmə prinsipinin xeyirxah məqsədlərindən öz işğalçı siyasətini gizlətmək üçün sui istifadə etməsi yolverilməzdir. Azərbaycan tərəfi hər zaman israrla bəyan edir ki, ölkəmizin Dağlıq Qarabağ bölgəsinin statusu yalnız bu ərazilərdən didərgin salınmış azərbaycanlı icmanın Dağlıq Qarabağdakı doğma evlərinə təhlükəsiz və ləyaqətli geri dönüşü təmin olunduqdan sonra hər iki icmanın iştirakı ilə birgə baxıla bilər.

Məlumdur ki, Ermənistan tərəfi münaqişənin tənzimlənməsi ilə bağlı beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələr, eləcə də, ATƏT-in Minsk Qrupu həmsədrlərinin mandatı ilə yaxından tanışdır. Həmsədrlərin bəyanatlarında qeyd olunduğu kimi münaqişənin sülh yolu ilə həlli BMT Nizamnaməsi, Helsinki Yekun Aktının müddəaları, BMT Təhlükəsizlik Şurasının və ATƏT-in qərarları üzərində qurulmalıdır.

Ermənistan rəhbərliyinin məsuliyyətsiz və destruktiv mövqeyi, sözdə hər zaman səsləndirdikləri münaqişənin sülh yolu ilə həllinə nəinki xidmət etmir, əksinə münaqişənin həlli istiqamətində aparılan sonuncu müzakirələrin mahiyyəti ilə ziddiyyət təşkil edir və danışıqlar prosesinin məhv edilməsi cəhdi deməkdir.

N.Paşinyan onu da birmənalı şəkildə dərk etməlidir ki, millətçi-təxribatçı dairələrin təzyiqi altında danışıqlar prosesini tərk edən tərəf mütləq uduzacaqdır. Buna görə də onun ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycanla razılaşmaqdan başqa çarəsi yoxdur. Ermənistan rəhbərliyi bu istiqamətdə ardıcıl və dönməz şəkildə nə qədər sürətlə irəliləməyə başlasa, o qədər də tez erməni xalqı qonşuları ilə sülh şəraitində davamlı inkişaf yoluna qədəm qoya biləcəkdir.

Bununla belə, növbəti dəfə Ermənistan tərəfinə xatırladırıq ki, BMT Nizamnaməsinin 25-ci maddəsinə uyğun olaraq, bütün üzv ölkələr Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməlidirlər. Bu müddəaya Ermənistan tərəfindən əməl edilməyəcəyi təqdirdə, BMT Nizamnaməsinin 51-ci maddəsinə istinadən Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyini bərpa edəcəyindən Ermənistan rəhbərliyi heç bir şübhə etməsin".

# Şəhid pilotun xanımının adından profil açaraq pul yığan dələduzlar peyda olub

**Sosial şəbəkələrdə pilot Rəşad Atakişiyevin həyat yoldaşı Könül Hüseynovanın adından saxta profil açılıb. Qeyd edilir ki, hansısa dələduzlar həmin profil vasitsəilə pul toplayır. Pilotun xanımı özü də məlumatın doğruluğunu təsdiqlədi:**



"Mənə indi məlumat verilib ki, adımdan sosial şəbəkələrdə səhifələr yaradılıb. Nəzərinizə çatdırmaq istəyirəm ki, mən heç bir sosial şəbəkədən istifadə etmirəm və digər adlarla səhifələr yaratmamışam. Zəhmət olmasa, belə hallarla rastlaşdıqda, həmin saxta adlı insanları ifşa edin".

Pilotun qardaşı Nicat Atakişiyevin sözlərinə görə, kimsə Rəşad Atakişiyev haqqında yanlış fikir formalaşdırmaq istəyir və insanların sevgisindən istifadə etməyə çalışır: "Könül xanımın adına saxta profil açıblar. Kimdirsə, Rəşadın adından istifadə edərək pul toplayır. Bu insanı axtarıb taparıq".

Mərhum Rəşad Atakişiyevin qaynatası Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir halla üzləşdikləri üçün çox üzüntü keçirirlər: "Mənim qızım heç bir sosial şəbəkədən istifadə etmir. Özüm isə ara-sıra "Facebook"a girirəm. Bizim Gəncədə yaşayan qohumlarımızdan biri dedi ki, "İnstagram" sosial şəbəkəsində belə profil açılıb və Rəşadın adından pul toplanır. Araşdırdıqda məlum oldu ki, profil mənim qızımın adınadır və saxtadır.

***Pilotun həyat yoldaşı:** "Mən heç bir sosial şəbəkədən istifadə etmirəm və digər adlarla səhifələr yaratmamışam"*

***Pilotun qardaşı:** "Kimdirsə, Rəşadın adından istifadə edərək pul toplayır"*

***Qabil Hüseynli:** "Görün insanlar nə qədər azğınlaşıb ki, bu yolla pul qazanmaqdan utanmırlar"*

Çünki qızımın ondan məlumatı yoxdur. Hətta Rəşadın iş yoldaşlarından bəzilərinə də müraciətlər edilib. Bizdə olan məlumata görə, vəsaitləri xüsusi açılan hesaba yönəldirmişlər. İlkin ehtimallarımız var. Təxmini bilirik ki, bu əməlləri kimlər törədə bilər. Ancaq dəqiq sübut olmadığı üçün, hələ ki, konkret ad çəkə bilmirəm. Bununla bağlı hüquq-mühafizə orqanlarına müraciət etmişik. Yəqin ki, tez bir zamanda bu dələduzluğu kimlərin etdiyi tapılıb üzə çıxarılacaq. Görün insanlar nə qədər azğınlaşıb ki, bu yolla pul qazanmaqdan utanmırlar. Çox xahiş edirəm ki, qarşınıza belə hallar çıxanda həmin profillərin bağlanması üçün şikayətlər edin. Həm də bu istiqamətdə bir maarifləndirmə aparın ki, dəllallar istifadə edə bilməsin. Adamın hələ 40-ı çıxmayıb, amma kimlərsə onun adından sui-istifadə etməyə çalışır. Sözün bitdiyi yerdir bu".

*Məhəmmədəli*
***QƏRİBLİ***

**Sosiallaşmaq normaldır, dünyanın hər yerində siyasi partiyalar, ictimai təşkilatlar sosial şəbəkələr üzərindən öz təşkilatlarının təbliğini aparır, platformalarını elan edir, siyasi məsələlərlə bağlı konkret təklif və iradlarını ortaya qoyurlar. Ancaq Azərbaycanda müxalifətin radikal qanadı və onları əvəzləməyə çalışan yeni mühacir dəstələr hələ də 90-cı illərin təfəkküründə olduqları üçün sosial şəbəkələri çayxanalardakı söhbət meydanlarına çeviriblər.**

# "Meydan TV"nin Parisdə erməni lobbisi tərəfindən maliyyələşdirildiyi sübut olunur - məşhur Emin Hüseynli "hücumda"...




Söyüş ritorikası ilə danışanlardan tutmuş, dezinformasiya yayanlar, xaricdən qrant almaq üçün min cür oyundan çıxanlar ora toplaşıb.

Yeri gəlmişkən, son vaxtlar sosial şəbəkələrdə vətənpərvərlikdən, demokratiya, ədalət və şəffaflıqdan dəm vuranlar, nədənsə, özlərinin xaricdən aldıqları qrantların hesabatını vermirlər. Nəinki bunun hesabatını vermirlər, heç bunu etiraf belə etmək istəmirlər. Əslində, reallıq ondan ibarətdir ki, gecə-gündüz anti-Azərbaycan təbliğatı ilə məşğul olan internet televiziyaları xaricdən maliyyələşirlər. Məxsusən sözügedən televiziyaların maliyyələşdirilməsində Azərbaycana qarşı olan dairələr fəal iştirak edirlər. Onlardan biri də Parisdə fəaliyyət göstərən "Meydan TV"dir. Hansı ki, bu televiziya yarandığı gündən Azərbaycana yönəlik şər-böhtan kampaniyası aparmaqla məşğuldur.

## *Azər Həsrət: "Məlum açıqlama sübut edir ki, "Meydan TV" qrant hesabına fəaliyyət göstərir"*

Bu arada xaricdə yaşayan Emin Hüseynli etiraf edib ki, "Meydan TV" xarici qrantlar hesabına maliyyələşir. Onun sözlərinə görə, məhz "Meydan TV"nin bütün maliyyəsi qrant hesabınadır. Onun bu açıqlaması bir daha sübut edir ki, xaricdən yayımlanan onlayn və digər internet TV-lər qrantlar hesabına fəaliyyət göstərirlər. Nəzərə alsaq ki, ermənilər Fransada böyük imkanlara malikdirlər, bu o deməkdir ki, sözügedən televiziya məhz erməni lobbisinin maliyyəsi ilə fəaliyyət göstərir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən media eksperti Azər Həsrətin fikrincə, məlum açıqlama sübut edir ki, "Meydan TV" qrant hesabına fəaliyyət göstərir: "Bu adamların, ümumiyyətlə, fəaliyyəti anti-Azərbaycan xarakterlidir. Digər bir tərəfdən, onların bu fəaliyyətlərinin təşviq edilməsi üçün erməni lobbisi əlindən gələni edir. Erməni lobbisi belə TV-lərə qrant ayrılmasında birbaşa və dolayı yollarla iştirak edir. Anti-Azərbaycan kampaniyası apardıqlarına görə bu televiziyaya böyük həvəslə maliyyə ayırırlar. Zatən, bütün bunlar bizə məlum idi, amma Emin Hüseynlinin açıqlaması bunu açıq şəkildə sübut edir. Onu da nəzərə almaq lazımdır ki, xaricdə erməni diasporu Azərbaycan diasporundan daha əvvəl formalaşıb, oturuşub. Eyni zamanda, müxtəlif ölkələrdə, müxtəlif dövlət qurumlarında, eləcə də beynəlxalq QHT-lərdə ermənilər oturuşublar. Həmin ermənilər də Azərbaycana qarşı kim hansı fəaliyyət göstərmək istəsə, o adamları mütləq qeydə alır və sözügedən adamların lobbiçiliyini aparırlar. Bəzən bu bizə o qədər də bariz şəkildə görünmür. Yəni ilk baxışdan belə görünür ki, Azərbaycan əleyhinə fəaliyyət göstərənlər ermənilərlə əlaqəsi olmayanlardır. Ancaq dərindən araşdıranda bəlli olur ki, o cür dəstəyin verilməsi zamanı hansısa mərhələdə ermənilərin iştirakı var. Özünə azərbaycanlı deyib, bu cür dəstəyi alıb ölkəmizə qarşı fəaliyyət göstərən adamlar öz dövlətlərinə, xalqlarına nə qədər böyük zərbə vurduqlarının fərqində deyillər.

*"Erməni lobbisi belə TV-lərə qrant ayrılmasında birbaşa və dolayı yollarla iştirak edir"*

Bunlar, faktiki olaraq, öz ruhunu şeytana satmış insanlardır. Bunlar üçün vətən, millət, dövlət anlayışı yoxdur. Çünki beləəri ancaq öz şəxsi maraqlarını güdürlər. Belə maraqların təmin edilməsində hətta ermənilərdən açıq dəstək almaqdan çəkinmirlər".

***Vidadi ORDAHALLI***

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyi və Azərbaycan Əfqanıstan Veteranları İctimai Birliyinin dəvətilə Türkiyə Əməkli Subaylar Dərnəyinin, Türkiyə Müharibə Qazilər Dərnəyinin, Türkiyə Harp Malülü Qazilər və Şəhid Yaxınları Dərnəyinin, Kıbrıs Türk Müqavimət Təşkilatının rəhbər heyəti və üzvlərindən ibarət nümayəndə heyəti Bakının işğaldan azad olunmasının 101 illiyi münasibətilə keçiriləcək tədbirlərə qatılmaq üçün Azərbaycana səfərə gəlib.**

# Emin Həsənli Türkiyə və Azərbaycanın hərbi yönümlü qeyri-hökumət qurumlarını birləşdirir...

## *"Türk Dünyası Şəhid və Qazilər Birliyinin mərkəzi Azərbaycan olacaq"*



Sentyabrın 15-dək Azərbaycanda səfərdə olacaq nümayəndə heyəti bir sıra tədbir və görüşlərdə iştirak edəcək.

Türkiyə Harp Malülü Qazilər ve Şəhid Yaxınları Dərnəyinin başqanı Mustafa İşıq səfərlərinin məqsədi barədə danışaraq qeyd edib ki, dostluğumuzu daha da möhkəmləndirmək istəyirik: "Türk Dünyası Şəhid və Qazilər Birliyi qurmaq niyyətindəyik. Belə bir projemiz var. İnşallah, bu niyyətimizi həyata keçirərik. Bir araya gəlmək üçün bizlər də əlimizdən gələni edirik. Yaradacağımız birlikdə Azərbaycan və Kiprdəki Şəhid Aiиləri və Qazilər Dərnəyi ilə bir araya gəldik. Getdikcə əlaqələrimizi gücləndirəcəyik. Müsəlman ailəsi olaraq bir arada güclü bir sivil toplum quracağımıza inanırıq".

Yaradılacaq birlik barəsində "Bakı-Xəbər"ə ətraflı məlumat verən Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənlinin sözlərinə görə, yaradılacaq birlik Azərbaycanda fəaliyyət göstərəcək: "Türkdilli dövlətlərin bir sıra birlikləri var. Ona görə də biz istətəyirik ki, ehtiyatda olan zabitlərin, şəhid və qazilərin dərnəklərinin böyük bir birliyini yaradaq. Bunu da artıq həyata keçiririk. Artıq Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti və Orta Asiya ölkələri ilə danışıqlarımız gedir. Türk Dünyası Şəhid və Qazilər Birliyinin mərkəzi Azərbaycan olacaq.

*"Hərbi yönümlü birliklər arasında əlaqələr genişlənməlidir"*

Bildiyiniz kimi, Azərbaycan Türkiyə ilə Orta Asiya arasında yerləşir. O baxımdan belə bir birlik yaratmaq fikrimiz var. Bununla bağlı iş gedir. Türkiyədə ehtiyatda olan zabitlər, müharibə veteranları, şəhid ailələri dərnəkləri bizi çox yaxşı dəstəkləyirlər. Türkiyə hər zaman Azərbaycanın haqq işinə dəstək verib. Türkiyədə qazi və şəhid ailələri çoxdur. Bununla bağlı yaradılan dərnəklərin hamısının toplam 100 mindən çox üzvü var. Həm də Türkiyədəki bu dərnəklərin NATO təşkilatı ilə əlaqələri var. Eyni zamanda, Dünya Veteran Assosiasiyasında böyük nüfuza malikdilər. Orda da Qarabağ məsələsində bizə dəstək verirlər".

E.Həsənli yaradılacaq birliyin fəaliyyəti barədə bunları dedi: "Bizim ortaq tariximiz var. Ona görə də bundan çıxış edərək hərbi yönümlü birliklər arasında əlaqələr genişlənməlidir. Haqq işimizi dünyada birlikdə müdafiə etmək, şəhid və qazi ailələrinin qarşılıqlı olaraq müalicəsi nəzərdə tutulub.

Yəni burada söhbət türkdilli ölkələrdə aparılacaq müalicədən gedir. O cümlədən, bu ailələrin istirahətini təmin etmək görüləcək işlərin tərkib hissəsidir. Bununla belə, birgə tədbirlərin keçirilməsi, beynəlxalq aləmdə, sosial mediada bir-birini dəstəkləmək də bura daxildir. Nəzərə almaq lazımdır ki, dünyada QHT-lərin əhəmiyyəti artır. O baxımdan, belə bir birliyin yaradılması vacibdir".

***Vidadi ORDAHALLI***

# Azərbaycanla Türkiyənin KTMT-də eyni vaxtlı müşahidəçilik statusu Ermənistanın "kürkünə birə salıb"...

**Məlum olduğu kimi, Ermənistan parlamenti sentyabrın 11-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) nizamnaməsinə dəyişiklikləri nəzərdə tutan protokolları ratifikasiya edib.**



***Ramil Hüseynov:** "Türkiyə ilə Qərb arasında yaşanan soyuqluğu nəzərə alsaq, bu ölkə KTMT-də müşahidəçi statusu ilə iştirak edə bilər"*

Ermənistan parlamentinin təsdiqlədiyi başqa bir protokol isə KTMT-yə üzv olmayan dövlət və digər beynəlxalq təşkilatlar üçün bu qurum yanında müşahidəçi statusunu nəzərdə tutur. Həmin protokola görə, müşahidəçi ölkə və təşkilatlar KTMT-nin fəaliyyəti ilə daha yaxından tanış olmaq imkanı əldə edə, qurumun hərbi-siyasi tədbirlərini izləyə, həmçinin, hərbi-texniki əməkdaşlıq imkanları qazana bilərlər. O sırada ortaq təlimləri izləmək və orada iştirak hüququ da var.

Bu arada erməni mətbuatı bütün bunu böyük narahatlıqla izləyir və mövqeyini müəyyən arqumentlərlə əsaslandırmağa çalışır. Erməni mətbuatı iddia edir ki, KTMT-də müşahidəçi statusunun yaradılması Azərbaycan və Türkiyənin orada sözügedən statusla iştirakına hesablanıb. Erməni mətbuatı yazır ki, KTMT baş katibinin öhdəliklərinin müvəqqəti icraçısı Valeri Semerikov Azərbaycan tərəfindən bununla bağlı heç bir ərizə olmadığını, olsa belə, qərarın konsensus əsasında qəbul edildiyini deyib. Erməni mətbuatı yazır ki, doğrudan da belədirsə, o zaman bu məsələ niyə aktualdır?

Ermənilərin kefini qaçıran başqa bir məqam isə Rusiya Baş nazirinin müavini Yuri Borisovun İrəvanda Azərbaycanın KTMT-də müşahidəçi və ya tərəfdaş statusu alma ehtimalı ilə bağlı verilən suala cavabıdır. Onun sözlərinə görə, KTMT keçmiş SSRİ respublikaları ilə əməkdaşlığı hər zaman dəstəkləyəcək: "Biz KTMT-nin bütün ölkələri və Azərbaycanla hərbi-texniki əməkdaşlığa bağlı olaraq çox balanslaşdırılmış və düşünülmüş siyasət yürüdürük. Biz vaxtında bir ailə olmuşuq. Bizim, ümumilikdə, çox şeyimiz var. Bu həm də məsələn, bütün keçmiş respublikaların hərbi qüvvələri kimi müəyyən bir balansla bağlıdır.".

Ermənilərin Türkiyə ilə bağlı narahatlığı ondan ibarətdir ki, bu ölkə də KTMT-də müşahidəçi statusu ilə iştirak edə bilər. Hesab edirlər ki, nizamnaməyə dəyişikliklər təkcə Azərbaycanla bağlı deyil. Bunu onunla əsaslandırırlar ki, Rusiyanın müdafiə sahəsində Türkiyə ilə əlaqələr qurması, S-400 raketlərinin bu ölkəyə satılması və Su-57 təyyarələrinin alınmasının müzakirə olunması buna əsas verir.

Bir sözlə, erməni tərəfi Azərbaycan və Türkiyənin KTMT-də müşahidəçi statusu ilə təmsil oluna biləcəyindən çox narahatdır.

Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, siyasətdə mümkün olmayan bir şey yoxdur: "Hər şey mümkündür. Tarixi proseslər bəzən elə sürətlə fərqli istiqamətdə inkişaf edir ki, buna təəccüblənməyə bilmirsən. Tarixən Rusiya ilə Türkiyə bir-birinə qarşı rəqib olub. Ancaq hazırkı dövrdə siyasi proseslər elə bir məcrada inkişaf edir ki, bu ölkələr arasında ciddi yaxınlaşma var. Düzdür, nəzərə alsaq ki, Türkiyə NATO-nun üzvüdür, o zaman bu ölkənin KTMT-yə üzv olması real deyil. Ancaq Türkiyə ilə Qərb arasında yaşanan soyuqluğu nəzərə alsaq, bu ölkə KTMT-də müşahidəçi statusu ilə iştirak edə bilər. Bu o zaman ola bilər ki, Türkiyəyə Qərbdən təzyiqlər artsın, ABŞ F-35 təyyarələri ilə bağlı öhdəliklərdən birmənalı imtina etsin və s. Belə olan halda, əlbəttə ki, belə bir ehtimal var. Azərbaycana gəldikdə isə bunun mümkün olmadığını demək çətindir. Hesab edirəm ki, Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiya Ermənistana təzyiq göstərsə, Azərbaycan bu addımı ata bilər. Fikrimcə, bu və digər məsələlər erməniləri indidən narahat edir".

## "Qarabağ münaqişəsinin tənzimlənməsində Rusiya..."

***Vidadi ORDAHALLI***

# Radikalların yeni izahı - hakimiyyətin bütün tədbirlərinə "bizdən qorxdu" yarlığı vurulur...

**Uzun müddətdir yerlərindən tərpəniş edə bilməyən radikal müxalifət partiyaları yeni taktikaya üstünlük verirlər. Onlar hakimiyyətin etdikləri müəyyən jestləri, əhalinin sosial rifah halının yaxşılaşdırılması ilə bağlı atdığı addımları öz adları ilə bağlamağa can atırlar və bundan dividendlər qazanmağa çalışırlar.**




***Elşən Həsənov:** "Açığını deyim ki, hazırkı məqamda mən hakimiyyətin müxalifətdən qorxub hansısa addımlar atması ilə bağlı heç bir səbəb görmürəm"*

Məsələn, keçirdikləri mitinqlərdən sonraya təsadüf edən islahat paketlərini guya hakimiyyətin onlardan qorxub geri çəkilməsi kimi qələmə verirlər.

Bugünlərdə partiyalardan birinin təşəbbüsü ilə baş tutan "dəyirmi masa"nı hakimiyyətin qorxudan atdığı addım kimi xarakterizə edirlər. Hansı istiqamətdə xalqın xeyrinə bir addım atılırsa, radikal müxalifət onu hakimiyyətin qorxaqlığı kimi qələmə verməyə çalışır. Əslində, belə gedişatlar radikal müxalifət tərəfindən əvvələr də edilib, ancaq ortada heç bir nəticə olmayıb. Özünü cəmiyyətə əsas müxalifət kimi sırımağa çalışanlar hələ 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra da eyni çıxışları edirdilər. Onda da deyirdilər ki, hakimiyyət zəifləyir. İddia edirdilər ki, bu gün, ya da sabah bunların sonudur. Amma nə oldu? Heydər Əliyev düz iki dönəm - 10 il prezidentlik etdi. Eyni təbliğatı İlham Əliyevlə də bağlı aparırdılar.

Hələ ona da ümid bağlayırdılar ki, ölkədəki sosial problemlər etiraz kütləsinin artması üçün yaxşı fürsət ola bilər. Amma nə oldu? İlham Əliyev sosial problemləri hər keçən il daha sürətlə həll etdi. Ölkənin beynəlxalq əlaqələrini genişləndirdi. Bununla bərabər dövlətin daha nizamlı idarə edilməsi üçün çox ciddi islahatlar keçirdi. Əslində, radikal müxalifət bu uğursuz taktikalarından normal nəticə çıxarmaq əvəzinə, onu yenə təkrar edirsə, burada hansı məqsədlər güdülə bilər?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün bunlar radikallar kimi təsnifatlandırılan müxalif qüvvələrin düzgün mübarizə yolu seçməməyindən irəli gəlir: "Bilirsiniz, partiya öz elektoratına hesabat verməli üçün nəsə ortaya qoymalıdır. Bunlar onu edə bilmirlər. Seçkidə uduzurlar, deyirlər ki, səsimiz əlimizdən alınıb. Onda isə məntiqlə küçələr adamla dolu olmalıdır ki, səslərini tələb etsinlər, ancaq bu da olmur. Ölkə başçısı əfv fərmanı imzalayır, bunlar çıxıb deyirlər ki, bizim qorxumuzdan bu addımı atdı. Hansısa sosial islahat aparılır, ona da eyni reaksiyanı verirlər. Bilirsiniz, belə müxaliflik etmək olmur. Müxalifət hakimiyyətin yaxşı işlərini təqdir etməlidir ki, gələcəkdə daha ciddi addımlar atılsın. Təbii ki, tənqidlər də öz yerində. Ancaq biz radikal dairələrin hər şeyi bir rəngdə gördüyünün şahidi oluruq. İqtidarın bir çox cəhətlərini biz də ciddi tənqid edirik, amma arada yaxşı işlərini də vurğulayırıq. Yəni ola bilməz ki, uzun illər ərzində hakimiyyət hansısa bir yaxşı addıma imza atmasın. Belə olsaydı, onda xalq çıxıb bunlara kütləvi etiraz edərdi.

Bu, yoxdursa, deməli, hakimiyyətin xalqa uyğun yaxşı işləri çoxdur. Ucuz şoular vasitəsilə dividendlər qazanmağın vaxtı gedib. İndi yalanın üstü tez açılır. Buna görə də müxalifət də obyektiv olmalıdır. Açığını deyim ki, hazırkı məqamda mən hakimiyyətin müxalifətdən qorxub hansısa addımlar atması ilə bağlı heç bir səbəb görmürəm".

***Məhəmmədəli QƏRİBLİ***

**Xaricə sığınan daha bir "mühacir" söyüş kampaniyasına qoşulduğunu bəyan edir. Təəccüblü gələn odur ki, həmin adam ilk baxışdan söyüş söyən küçə uşaqlarından fərqlənməlidir. Çünki adına hüquqşünas deyilir, uzun müddət ölkənin ictimai-siyasi proseslərində yaxından iştirak edib.**

# Xarici qrantların tör-töküntüsünün ən stajlı "yeyəni" Azərbaycan jurnalistlər ordusunu təhqir etdi...



Görünür, bu epitetlər onun adının önünə zorla yapışdırılıbmış. Adam sərgilədiyi mövqeyi ilə sübut edir ki, Orduxandan, Mirzəlidən, Qalibdən heç nəyi ilə fərqlənmir. Söhbət keçmiş Media Hüquqları İnstitutunun (MHİ) rəhbəri Rəşid Hacılıdan gedir.

Onun rəhbəri olduğu təşkilatın adını ona görə keçmiş kimi qeyd edirik ki, hazırda fəaliyyət göstərmir. Çünki artıq yeməyə heç nə qalmadığı üçün, Rəşid Hacılının özü xaricə qaçıb və qrant mənimsəmək üçün qurduğu təşkilatı da su satılan köşk kimi bağlayıb. Məhz medianın adı ilə milyonlarla qrantı həzmdən keçirən Rəşid Hacılı adlı məxluq indi də xaricdən cəsarət tapıb Azərbaycan jurnalistlərini toplu halında təhqir edib. Həmin təhqirin detallarına varmaq istəmirik. Hər halda, bununla Hacılı öz səviyyəsi(zliyi)ni ortya qoyub. Media adamı olduğunu elan edən bu şəxsin hər hansı bir redaksiyada çalışan vaxtına rast gələn olmayıb. Ancaq onun adı müxalif siyasi blokların yaradılması, siyasi məhbus alverində daim çəkilib.

2013-cü ildə rəsmən qondarma Milli Şuranın üzvlüyünü qəbul edib, siyasətə qoşulub. "Milli Şura" təmsilçisi qismində müsahibələri var. Öz əqidədaşları ilə tez-tez aralarında qalmaqal yaranan bu adamın hətta Bakıda olanda hakimiyyətdə müəyyən adamlara agentlik etdiyini də bildiriblər. Rəşid Hacılı hakimiyyətdəki bəzi şəxslərlə yaxın əlaqələrinin olduğunu gizlətməyib, müsahibələrində bəzi adamlarla yaxın qohum olduğunu deməklə yaxasını kənara çəkə bilib.

2015-ci ildə Rəşid Hacılının rəhbərlik etdiyi Media Hüquqları İnstitutunun bank hesabına həbs qoyuldu. Səbəb media hüquq müdafiəçiliyi adı altında qrantlar alınması və həmin qrantların təyinatı üzrə xərclənməməsi, hesabatlılığın düzgün qurulmaması idi.

Radikal müxalifətin təsiri altında olan bu şəxs bir QHT rəhbəri kimi daim öz nizamnamə məqsədlərindən kənara çıxaraq, siyasi fəaliyyətlə məşğul olmağa cəhd göstərib və yaxud ayrı-ayrı siyasi partiyaların mövqelərindən çıxış edib. Rəşid Hacılı mühacirətdə olmasına baxmayaraq, Azərbaycan xalqının, dövlətin maraqlarına da ciddi zərər vurmaqla məşğuldur. Müxtəlif instansiyalarda öz fikirlərini, daha doğrusu, dezinformasiyalarını yaymaqla R.Hacılı ölkəmizin nüfuzuna xələl gətirmək niyyəti güdür. Hadisələri təhrif edərək, müxtəlif don geyindirən bu QHT rəhbərinin fəaliyyəti imicə təsir edə biləcək qanunsuzluqla yanaşı, həm də vətəndaşlıq mövqeyinə uyğun gəlmir. Media Hüquqları İnstitutunun və onun rəhbəri R.Hacılının da xaricdəki ağalara qulluq etdiyini, Azərbaycanın nüfuzuna xələl gətirməkdə maraqlı olan xaricdəki qüvvələrin tapşırıqlarını yerinə yetirdiyini təkzib etmək mümkün deyil. Bəlli olur ki, R.Hacılı insan hüquqları sahəsinə o qədər də uzaq olmayan keçmişdə, 2006-cı ildə rəhbərlik etdiyi Media Hüquqları İnstitutu 2006-2013-cü illər ərzində Amerika fondları NED və İREX-dən, Soros Fondundan, Böyük Britaniya səfirliyindən, Avropa Şurasından və ATƏT-dən üst-üstə 1 milyon 600 min manatdan çox qrant alıb. Alınan qrantları da qurumun rəhbəri olaraq R.Hacılı rahatlıqla mənimsəyib.

QHT rəhbəri ayrılan vəsaitlərin mənimsənilməsini müxtəlif yollarla həyata keçirib. Nəticədə hesabatı elə aparıb ki, vəsaitləri ayıranların özləri də məəttəl qalıblar. Bəzən hətta əməkdaşlara bir məbləğə imza etdirib, ayrı məbləği almaq, yəni ikili maaşlar vermək kimi maxinasiyalara yol verib. Özünü hüquq institutunun rəhbəri, hüquq müdafiəçisi kimi göstərən R.Hacılının fəaliyyətində sadalanan bu qanunsuzluqlar yalnız bir neçə epizoddur. İndi görün kim-kimə lağ edir? Media adı ilə ən yağlı tikələri cinayət yolu ilə mənimsəyən bu adamın niyə narahat olduğunu bilirik. Çünki artıq görür ki, Azərbaycan mediasının ciddi nümunələri dövlətin qayğısı altındadır.

Onların kursuna xaricdən gətirilən hansısa qrantlarla təsir etmək mümkün deyil. Media mühitinin sağlamalaşması ilə Rəşid Hacılının çörək ağacına zərbə dəyib. Bax, buna görə belə narahatdır, hətta tez-tez isterikaya düşüb səviyyəsinə uyğun təhqirlərə yol verməyi özünə rəva bilir.

***Məhəmmədəli QƏRİBLİ***

**ABŞ-ın Virciniya ştatında yerləşən və texniki xidmətlər göstərən "VSE Corp" şirkəti Azərbaycanın antiterror, antikəşfiyyat avandanlıqları ilə təmin edilməsi və yerində, ixtisaslı təlimlərin həyata keçirilməsi ilə bağlı 10,082,812 dollarlıq məbləğində müqaviləyə imza atıb.**

# ABŞ kəşfiyyat və antiterror məqsədləri üçün Azərbaycana 10 milyon yardım ayırır

## *Məhəmməd Əsədullazadə: "Bu onu göstərir ki, Ağ Evin Cənubi Qafqazda əsas strateji ortağı Azərbaycan ola bilər"*



ABŞ Müdafiə Nazirliyinin yaydığı məlumata görə, müqavilənin məqsədi Xəzər dənizində Azərbaycanın təhlükəsizliyinə dəstək verməkdir və bu, "Xarici Hərbi Alış-Satış" proqramının "Tərəfdaşların imkanlarını genişləndirməklə" alt layihəsi əsasında həyata keçirilir.

Qərara əsasən, proqramın 88 faizi ABŞ-da, 12 faizi isə Azərbaycanda həyata keçiriləcək.

Avadanlıqların nədən ibarət olduğu açıqlanmır. Məlumata görə, müqavilə Azərbaycan hökuməti üçün ABŞ-ın xarici hərbi satışlar proqramı çərçivəsində bağlanıb.

**Ən nəhayət, onu da qeyd edək ki, "securityasistance" saytının bu ilin iyulunda nəşr etdiyi məlumatlara görə, ABŞ 2018-2019-cu illər ərzində Azərbaycana 101 milyon dollardan artıq hərbi yardım (avadanlıqlar, təlimlər və texniki xidmət) edib.**

Dünyada elm və texnika inkişaf etdikcə, qanunsuz qruplaşmaların - terrorçuların da fəaliyyətində müasir texnologiyalardan istifadə halları artır. Bunun qarşısını almaq üçünsə dövlətlər bu qanunsuz cinayətkar qruplaşmalarla mübarizəyə milyonlarla dollar həcmində vəsaitlər xərcləyirlər. ABŞ terrordan zərərçəkmiş ölkə olaraq 2001-ci ilin sentyabr hadisələrindən sonra əməkdaşlıq etdiyi ölkələrə bu sahədə yardımlar göstərir. Azərbaycan da bu ölkələrdən biridir.

Maraqlıdır, bəs ekspertlər sözügedən məsələ ilə bağlı ABŞ-ın Azərbaycana yardım etməsini necə dəyərləndirirlər?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bu ondan irəli gəlir ki, Vaşinqtonun Cənubi Qafqazda xüsusi önəm verdiyi əsas ölkə Azərbaycandır: "ABŞ-Azərbaycan əlaqələri ikitərəfli əməkdaşlıq formatında uğurla inkişaf edir. Vaşinqtonun Cənubi Qafqazda xüsusi önəm verdiyi əsas ölkə məhz Azərbaycandır. İki ölkə beynəlxalq terrorizm və təhlükəsizlik sahəsində yüksək əməkdaşlıq edir. Bir müddət bundan əvvəl Vaşinqton sərhədlərimizin yüksək səviyyədə qorunması üçün 100 milyon dollar vəsait ayırdı. İndi də 10 milyon ayırması onu göstərir ki, Ağ Evin Cənubi Qafqazda əsas strateji ortağı Azərbaycan ola bilər. ABŞ tərəfindən irəli sürülən bu hərbi yardımlar göstərir ki, Azərbaycan regionda önəmli ölkədir.

*"Sərhədlərimizin təhlükəsizliyi, kəşfiyyat və terrorizmə qarşı mübarizədə ABŞ ölkəmizlə sıx əməkdaşlıq edir"*

Sərhədlərimizin təhlükəsizliyi, kəşfiyyat və terrorizmə qarşı mübarizədə ABŞ Azərbaycanla sıx əməkdaşlıq edir. Fikir versək görərik ki, regionda Azərbaycan Ermənistan və Gürcüstandan da irəlidədir.

**Vaşinqton məhz Azərbaycanla strateji əlaqələri inkişaf etdirməklə regionda mövqeyini gücləndirir. Bu hərbi yardımlar, həmçinin, ABŞ-ın "907-ci Düzəliş"inin aradan götürülməsinə gətirib çıxarar. Artıq dünyada yeni nizam formalaşır və regionumuz da burada aparıcı yerdədir. Bu kontekstdə ABŞ Azərbaycana yardım etməklə birgə fəaliyyəti genişləndirəcək".**

***Vidadi ORDAHALLI***

# "Əxlaq polisi" adlı qondarma qurum söhbətləri ilə DİN-in ciddi fəaliyyətinə qarşı işləyənlər...

***Aydın Quliyev:** "Ortaya "əxlaq polisi" deyilən məsələni atanlar bu gün öz işini yüksək dəqiqliklə görən DİN-in səlahiyyətlərinin bir hissəsinin başqa quruma verilməsi ilə onun rolunu azaltmağı hədəfləyirlər"*

***Şəmsəddin Əliyev:** "Bu qüvvələrə "əxlaq polisi" şayiəsini yaydıranlar var və onların da məqsədi..."*

**Bu gün təəssüf ki, sosial şəbəkələrdə Azərbaycan polisinin fəaliyyətinə kölgə salmaq istəyən qüvvələr var. Onlar, bir qayda olaraq, polislə bağlı həqiqətə uyğun olmayan məlumatlar, fikirlər yayırlar. Son günlər sosial şəbəkələrdə yayılan belə əsassız məlumatlardan biri də "əxlaq polisi"nin yaradılması ilə bağlıdır.**

Sosial şəbəkələrdə Azərbaycanda "əxlaq polisi"nin yaradılacağı barədə şayiələr yayılır. Bu cür söz-söhbətlər polisin Bakının mərkəzində turistlərə intim xidmət təklif edən yüngül əxlaqlı qadınlara qarşı mübarizəni gücləndirməsindən qaynaqlanır.

Daxili İşlər Nazirliyi (DİN) Mətbuat xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov mətbuata açıqlamasında sosial şəbəkələrdə yayılan bu məlumatın əsassız olduğunu qeyd edib. E.Zahidovun sözlərinə görə, paytaxt sakinlərinin çoxsaylı müraciətini nəzərə alaraq, polis əməkdaşları Bakının bir sıra mərkəzi küçələrindən, xüsusən də "Torqovı"dan (Nizami küçəsi) Azərbaycan xalqının milli dəyərlərinə, mentalitetinə zidd hərəkətlərə yol verən və turistlərə ədəbsiz təkliflər edən qadınları yığışdırıb və onlara müvafiq xəbərdarlıq ediblər: "Polisin bu hərəkətləri, bütövlükdə, şəhər sakinləri tərəfindən müsbət qarşılanıb. Ancaq son günlər sosial şəbəkələrdə bəzi istifadəçilər polisin bu hərəkətlərinə əsaslanaraq, Azərbaycanda yeni bir qurumun - "əxlaq polisi"nin yaradılacağı barədə məlumatlar yayırlar. Bununla əlaqədar olaraq bildirirəm ki, bu bəyanatlar əsassızdır. Ümumiyyətlə, nə keçmişdə, nə də bu gün Daxili İşlər Nazirliyində "əxlaq polisi" strukturunun yaradılması üçün heç bir layihə olmayıb və yoxdur".



"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev öz "Facebook" hesabında Azərbaycanda "əxlaq polisi" yaradılacağı ilə bağlı şayiələrə tutarlı cavab verib: "DİN adından Ehsan Zahidov bu gün (dünən - İ.S.) operativ qaydada təkzib yaysa da, sosial şəbəkələrdə guya Azərbaycanın ayrıca "əxlaq polisi"nin yaradılacağı barədə yaydırılan xəbərlərə təsadüf kimi baxmıram. Bunlar polisə qarşı aparılan qaralama kampaniyalarının başqa formada davamına da oxşayır. Polis ictimai asayişin və qanunçuluğun böyük dayağı olduğu üçün, onun imicini qaralayanların, əslində, hansı hədəfi vurduqlarını görürük. Ortaya "əxlaq polisi"deyilən məsələni atanlar isə bu gün öz işini yüksək dəqiqliklə görən DİN-in səlahiyyətlərinin bir hissəsinin başqa quruma verilməsi ilə onun rolunu azaltmağı hədəfləyirlər. Əslində, hədəf eyni deyilmi?! Əxlaqi mühitə və milli-mənəvi dəyərlərə zidd olan hərəkət və təzahürlərlə mübarizədə indiki DİN orqanları nəyi kəm-kəsir və ya yarıtmaz edir ki?!...".

Sosial şəbəkələrdə bəzi qüvvələrin "əxlaq polsi"nin yaradılacağı ilə bağlı yaydığı şayiənin ölkəmizin və polisimizin imicinə zərər vurmağa xidmət etdiyini bildirən "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev hesab edir ki, bu əsassız söz-söhbəti meydana atan adamların özlərinin əxlaqında ciddi qüsur var. Ş.Əliyevin sözlərinə görə, 100 yaşlı Azərbaycan polisi on illərdir ölkəmizdə asayişin, dincliyin təmin olunmasını həyata keçirir. "Azərbaycan dövləti milli-mənəvi dəyərləri hər zaman qoruyan bir ölkədir. Azərbaycan polisi 100 ildir dövlətimizin, xalqımızın, qonaqlarımızın dincliyini, asayişini qoruyur. Sosial şəbəkələrdə "Azərbaycanda "əxlaq polisi" yaradılır" deyə əsassız kampaniya aparan adamların özlərinin əxlaqında ciddi qüsur var. Onlar Azərbaycan polisinin fəaliyyətinə, onun cinayətkarlıqla mübarizəsinə, bu sahədə gördüyü mühüm tədbirlərə kölgə salmaq, "Azərbaycanda əxlaqsızlıq baş alıb gedir" şayiəsini dövriyyəyə buraxmaq istəyirlər. Əslində isə belə deyil. Azərbaycan polisi öz fəaliyyəti, öz ayıqsayıqlığı ilə bütün vətəndaşların qayğısına qalır, onların təhlükəsizliyini qoruyur. Hesab edirəm ki, "əxlaq polisi" kimi cəfəng, mənasız, əsassız bir qondarma məsələni ortaya atan adamların özlərinə qarşı ictimaiyyət barışmaz mövqe sərgiləməlidir. İctimaiyyət hər bir addımda polisin zəhmətinə, əməyinə dəyər verməlidir.

Polis öz vəzifəsini çox yüksək səviyyədə yerinə yetirdiyi bir halda, başqa qondarma təsisatın yaradılmasını ortaya atan adamlar ciddi məsuliyyət daşıyırlar".

Ş.Əliyev qeyd edtdi ki, bu qondarma məsələni sosial şəbəkələrdə yayan şəxslər bununla paytaxtımıza və respublikamıza gələn turistlərin fikrini çaşdırmaq, onları bura gəlməkdən çəkindirmək məqsədi güdürlər. "Halbuki, Azərbaycanda belə bir problem yoxdur.

**Sosial şəbəkələrdə "əxalq polisi" yaradılır deyə yazan adamların özləri əxlaqsızlığa xidmət edirlər. Bu qüvvələrə "əxlaq polisi" şayiəsini yaydıranlar var və onların da məqsədi aydındır - Azərbaycan polisinin fəlaiyyətinə, zəhmətinə kölgə salmaq" - deyə Ş.Əliyev vurğuladı.**

***İradə SARIYEVA***

# Paşinyan eyni vaxtda Putin və Ruhanidən zərbə ala bilər...

**Məlumat verildiyi kimi, oktyabrın 1-də İrəvanda Avrasiya İqtisadi Birliyi (AİB) Ali Şurasına daxil olan dövlətlərin başçılarının iştirakı ilə toplantı planlaşdırılıb. İndi maraq doğuran məsələ Rusiya prezidenti Vladimir Putinin bu toplantıda iştirak edib-etməyəcəyidir.**

Artıq bu məsələ bir neçə gündür ki, Ermənistanda xüsusi müzakirə predmetidir. İrəvanda hesab edirlər ki, Rusiya rəhbəri toplantıya qatılmasa, bu, Moskvanın Ermənistana qarşı sərt təzyiq siyasətinə başlamasının mühüm göstəricisi olacaq. Baş verənlərlə bağlı Rusiyanın "rosbalt.ru" portalı yazır: "Rusiya lideri Avrasiya İqtisadi Birliyinin Ermənistandakı sammitinə qatılacaqmı? Onun həbs edilmiş keçmiş prezident Robert Köçəryanla görüşmək arzusu bu səfəri sual altında qoyur.

Putinin "cinayət-icraat müəssisəsi"nə baş çəkməyi üçün Ermənistan tərəfindən təhlükəsizliyə təminat tələb olunub, amma rədd cavabı alıblar. Bunlar o vaxtda baş verir ki, Ermənistan "məxməri" hakimiyyət dəyişikliyindən sonra həmişəki kimi AİB, KTMT-yə qarşı daim iddialar irəli sürür, onun üçün ən böyük qıcıqlandırıcı isə Rusiyadır. Ermənistanın bəzi KİV-ləri bu iki bloku da, Rusiyanı da bir qayda olaraq yamanlamağa, həm də Rusiya liderini "sancmağa" girişib. Ermənistan, bununla yanaşı, yenə də nə KTMT, nə AİB-i tərk etmək, nə də Moskvadan asılı münasibətlərdən can qurtarmaq risqinə gedir. Sadə bir səbəbə görə - əlverişsizdir. Burada qeyd edək ki, AİB sammiti ərəfəsində Ermənistan cəmiyyətinin önəmli bölümündə fal açmağa başlayıblar ki, Putin öz iştirakı ilə Ermənistanı xoşbəxt edəcəkmi, yoxsa sammiti Moskvaya keçirəcək. Və ikincisi - İrəvan AİB-də çoxları tərəfindən Ermənistanı suverenlikdən və iqtisadi azadlıqlardan məhrum edən "rüsvayçılıq" adlandırılan "köləlikdən" çıxacaqmı.

Hazırda erməni resursları sual edir ki, Putin sammiti Moskvaya keçirərmi? Kreml qaldırılan küy-kələyi hələlik heç cür şərh etmir, Ermənistan xarici işlər nazirinin müavini Şavarş Köçəryan isə jurnalistlərə əminliklə bildirib ki, Putin İrəvana gələr. Bundan başqa, AİB-ə daxil olan başqa dövlətlərin başçıları kimi, Ermənistan İran prezidenti Həsən Ruhanini də tədbirdə görmək istəyir və bunun müxtəlif səbəbləri var. Ermənistanın baş naziri Nikol Paşinyanın İran mediası ilə söhbətindən də duyulduğu kimi, o, ikitərəfli işbirliyini genişləndirmək haqda Tehranla dil tapmağa bel bağlayır. Amma danışığın baş tutması üçün Ermənistanın çox konkret iqtisadi gündəliyi olmalıdır. Bu isə var: İrəvan istəyir, ancaq Rusiyanın təbii qazından asılılığını hələ də heç cür azalda bilmir. O, İrandan yanacaq alır, lakin olduqca məhdud miqdarda və əsasən, həmin İrana idxal edilən elektrik enerjisi hasil etmək üçün. Sonuncu tədarükü artırmağa hazırdır, amma bu məsələdə bir neçə "əmma" var.

Məsələn, Ermənistanın İran səfiri Artaşes Tumanyan təsdiqləyib ki, Rusiya qazının qiyməti (min kubmetrə 165 dollar) Ermənistana əlverişlidir, bir də, İran ona daha ucuz yanacaq təklif etməyib. Düzdür, səfir deyib ki, "Başqa ideya var - biz Türkmənistan qazını alıb İran qazıyla mübadilə edə bilərik. Bu çox rahat, əlyetən olardı, qaz almaqla bağlı qısqanclıq səhnələrindən yayınmağa yardım edərdi". Aydındır ki, səhnələri Rusiya düzəldir. Buna görə də özünü aldatmaq variantı nəzərdə tutulmursa, Türkmənistan qazı ideyası tam aydın deyil: Rusiyanın Türkmənistandan aldığı təbii qazı ondan almaq. Aydındır ki, belə qazın dəyəri Ermənistanın Rusiyadan "qardaşsayağı" ucuz aldığından bahadır. Ümumiyyətlə, Ruhaninin gəlib-gəlməyəcəyi də bəlli deyil. Amma Ermənistanın İran məsələsində ABŞ-la yaxınlaşmaq cəhdlərini də Tehran qəbul etmir və bu da münasibətlərə təsir edir.

Rusiya ilə də əlaqələr pisləşir. Təkcə Köçəryana görə yox. İrəvanda iddia olunur ki, Rusiya Ermənistan vətəndaşlarına münasibətdə "diskriminal qanunlar" qəbul edir və bu haqda artıq xarici işlər nazirinin müavini Şavarş Köçəryan danışır. Məsələ isə burasındadır ki, Rusiya qanunvericiliyi ödənişli iş məqsədilə avtonəqliyyat vasitələrindən istifadə hallarında xarici sürücülük vəsiqəsini tanımır. Yəni Ermənistan vəsiqələri ilə Rusiyaya maşın sürmək olar, amma, bax, onunla taksi, avtobus, yük maşını və sair sürücüsü işləmək olmaz. Bununla yanaşı, Rusiyada AİB-də rus dilinin rəsmi statusa malik olduğu bütün üzv ölkələrin sürücülük vəsiqəsi tanınır. Ermənistan isə Birlikdə yeganə ölkədir ki, burada rus dilinin, ümumiyyətlə, heç bir statusu yoxdur. "Diskriminasiya"dan danışan nazir müavini hesab edir ki, Ermənistanın sürücülük vəsiqələrinin Rusiya tərəfindən tanınmaması AİB haqda müqaviləyə ziddir. Amma o, bununla yanaşı vurğulayır ki, birlik "Ermənistanın başqa ölkələrlə bərabər tamhüquqlu sahib olduğu yeganə qurumdur" və bu birlik çərçivəsində onun iştirakı olmadan heç bir qərar alına bilməz. Və burada öz maraqlarını yeridə bilər. Lakin diplomat bu zaman özünə zidd gedərək bildirir ki, sürücülük vəsiqəsi ilə bağlı durum AİB-in səlahiyyətlərinə daxil deyil. Sual yaranır: onda o niyə Avrasiya Birliyi haqda müqavilə ilə ziddiyyətə girir və burada "diskriminasiya" haradadır? Və Ermənistanın orada üzvlüyü niyə rüsvayçılıqdır?



Burada İrəvan Dövlət Universiteti politologiya kafedrasının müdiri Qarik Keryanın "Sputnik"lə söhbətdə səsləndirdiyi fikrini iqtibas gətirməyinə dəyər. O, Ermənistanın AİB-ə qoşulmaq qərarını şərh edərək deyib ki, istənilən inteqrasiya mənfi və müsbətləri nəzərdə tutur, amma hərbi-siyasi prioritetlər iqtisadi maraqları həmişə üstələyir. Onun izahatına görə, Avrasiya Birliyinə girmək və Avropa Birliyi ilə assosiasiya haqda saziş imzalamaq arasında seçim Ermənistanın təhlükəsizlik məsələsi ilə birbaşa bağlı idi, iqtisadiyyatın inkişafı isə birinci növbədə daxili siyasətdən asılıdır. Belə ki, "sandıqça asanlıqla açılır". O deyib: "Avropa Birliyinə girirsənsə, ya da assosiasiya haqda saziş imzalayırsansa, dünyada ən inkişaf etmiş "ailə"yə daha yaxın olursan". Amma bununla yanaşı o, Ermənistanın geopolitik vəziyyətinə bağlı bir sıra mənfi məqamlara işarə edib. Məsələn, Avropa Birliyinin dördüncü və əhatəli genişlənməyindən sonra uyğun proses "dondurulub" və yeni üzvlərdən söz açılmır. "Bu, Ermənistan üçün həmişə hansısa əlavəni və bu "ailə"nin haçansa üzvü olub-olmayacağını bilməməyi ifadə edir, - politoloq vurğulayıb, - Hətta Ukrayna və Gürcüstan kimi Avropayönlü ölkələrin də yaxın gələcəkdə AB-yə girməyə heç bir ümidi yoxdur". Bir də, ümumiyyətlə, inkişaf etmiş ölkələrlə eyni iqtisadi blokda olmaq zəif və orta iqtisadiyyatlar üçün ağır durum yaradır. Bu baxımdan Yunanıstan, Portuqaliyadakı iqtisadi böhranlar, Bolqarıstan, Rumıniya, Baltikyanında mühacirət və iqtisadi düşkünləşmə səciyyəvidir.

Onun fikrincə, ən önəmli mənfi məqam budur ki, AB Ermənistana təhlükəsizlik zəmanəti vermir. Amma bax, Rusiya verir. Keryan deyib: "2013-cü ildə o zamankı prezident Serj Sarksyanın AİB-ə girmək haqda bəyanatının səbəblərindən biri məhz bu idi... Başa düşmək gərəkdir ki, hərbi-siyasi planda KTMT-də, iqtisadi planda AB-də olmaq cəfəngiyyatdır". Bununla bərabər, paradoksal olsa da, faktdır ki, Ermənistanda olan Rusiya kapitalına arabir sərt "basqın edirlər". Halbuki, nəzərə almaq lazımdır ki, hər necə olsa da, AİB-in gəncliyi onun iştirakçılarına dünyadakı mənfi tendensiyalara əks təsir göstərmək imkanı verən əlavə iqtisadi artımı təmin etməyə mane olmayıb. Bunu da bir başqası deyil, birliyin bütün səhv və nöqsanlarının ən düzgün tənqidçisi kimi məşhurlaşan Belarus prezidenti Aleksandr Lukaşenko boynuna alır. O bunu da təsdiqləyir ki, AİB qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəni genişləndirməkdə, inflyasiya risqlərini önləməkdə, birlik dövlətlərinin uzlaşdırılmış makroiqtisadi siyasət aparmaqda mövqelərini yaxınlaşdırmaqda müsbət rol oynayıb. O deyib ki, ümumiyyətlə, "dünya artıq bizi görməməyə nail ola bilməz".

Amma Ermənistan təşkilata üzvlüyünün müsbət məqamlarına, sadəcə, məhəl qoymur. Özü də söhbət iqtisadiyyatı inkişaf etməmiş, həm də qonşularla - Azərbaycan və Türkiyə ilə pis münasibətlərə görə yarımblokada durumunda olan ölkədən gedir.

Bunların İrəvanda düzgün qiymətləndirilməməsi Rusiyanı və onun liderini ciddi şəkildə narazı salır. Məhz bu səbəbdən Putinin İrəvana gəlişi də ciddi sual altındadır".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın Ermənistana son xəbərdarlıq bəyanatları daha çox dəstək jestləri tapır

**Ermənistanın hələ də əl çəkmədiyi qefri-konstruktiv mövqeyi üzündən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli artıq tam dalana dirənmiş vəziyyətdədir. Problemin dünc müstəvidə çözümünə vasitəçilik edən ATƏT-in Minsk Qrupunun işğalçıya qarşı yenə də hansısa real təzyiq mexanizmələrini işə salmaması isə vəziyyəti daha da mürəkkəbləşdirir.**

Təbii ki, belə vəziyyət Bakının ciddi narazılığına yol açır. Azərbaycan rəsmi səviyyədə xəbərdarlıq edərək açıq mətnlə bildirir ki, hadisələrin inkişaf axarı Qarabağ probleminin hərbi həllini qaçılmaz edir.

Azərbaycan Xarici İşlər Nazirliyinin son günlərdə biri-birinin ardınca verdiyi bəyantlara nəzər salanda da qeyd edilənlərin tam təsdiqini görmək mümkündür. Xarici İşlər Nazirliyinin son bəyanatında yenidən məsələnin bu tərəfinə nəzər salınaraq bildirilir ki, erməni rəhbərliyinin açıqlamaları, həmçinin münaqişənin həllinə xidmət etməyən digər addımlar vəziyyəti təhlükəli istiqamətə doğru aparır: "Ermənistanın təcavüzkar siyasətinin davam etməsi və hərbi işğala əsaslanan mövcud status-kvo vəziyyətinin möhkəmlənməsinə yönəlik addımları, o cümlədən bu ölkə rəhbərliyinin son dövrdə səsləndirdiyi anneksionist bəyanatlar əsasən daxili auditoriyaya yönəlmiş olsa belə, bölgədə vəziyyətin kəskinləşməsinə xidmət edtı". O da qeyd olunur ki, erməni rəhbərliyi beynəlxalq hüququn açıq şəkildə tapdanması ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq vasitəçilərin uzun illər apardığı səyləri, deməк olar ki, şübhə altına alan çox təhlükəli bir gərginlik yaradıb: "Azərbaycan Hökuməti Ermənistan rəhbərliyinin məsuliyyətsiz ritorikasını münaqişənin həlli üzrə danışıqlar prosesini pozmaq cəhdi kimi dəyərləndirərək, bununla bağlı vaxtında qəti etirazını bildirdi və məsələ beynəlxalq təsisatların diqqətinə çatdırıldı... Ermənistan rəhbərliyinin məsuliyyətsiz və destruktiv mövqeyi sözdə hər zaman səsləndirdikləri münaqişənin sülh yolu ilə həllinə nəinki xidmət etmir, hətta əksinə, münaqişənin həlli istiqamətində aparılan sonuncu müzakirələrin mahiyyəti ilə də ziddiyyət təşkil edir və danışıqlar prosesinin məhv edilməsi cəhdi deməkdir. Nikol Paşinyan onu da birmənalı şəkildə dərk etməlidir ki, millətçi-təxribatçı dairələrin təzyiqi altında danışıqlar prosesini tərk edən tərəf mütləq uduzacaq. Buna görə də onun ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə Azərbaycanla razılaşmaqdan başqa çarəsi yoxdur. Ermənistan rəhbərliyi bu istiqamətdə ardıcıl və dönməz şəkildə nə qədər sürətlə irəliləməyə başlasa, o qədər də tez erməni xalqı qonşuları ilə sülh şəraitində davamlı inkişaf yoluna qədəm qoya biləcək. Bununla belə, növbəti dəfə Ermənistan tərəfinə xatırladırıq ki, BMT nizamnaməsinin 25-ci maddəsinə uyğun olaraq, bütün üzv ölkələr Təhlükəsizlik Şurasının qərarlarını yerinə yetirməlidir. Bu müddəaya Ermənistan tərəfindən əməl edilməyəcəyi təqdirdə, BMT nizamnaməsinin 51-ci maddəsinə istinadən Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyini bərpa edəcəyindən Ermənistan rəhbərliyi heç bir şübhə etməsin".

Beləliklə, bu mövqedən tam aydın görünür ki, beynəlxalq hüquqa uyğun olaraq, Ermənistan zəbt edilmiş ərazilərin geri qaytarılması istiqamətində addım atmasa, Azərbaycan məsələni güc yolu ilə həll etmək məcburiyyətində qalacaq. Çünki BMT nizamnaməsinin 51-ci maddəsi də məhz bunu nəzərdə tutur. Bununla Bakı həm işğalçıya, həm də beynəlxalq vasitəçilərə öz xəbərdarlığını etmiş oldu. İndi, belə demək mümkünsə, top qarşı tərəfdədir və İrəvan gözlənilən addımları atmasa, güc varinatından istifadə qaçılmazdır. Burada digər maraqlı fakt odur ki, Xarici İşlər Nazirliyinin son bəyanatı fonunda Azərbaycan ordusunun düşməni lərzəyə gətirəcək yeni genişmiqyaslı əməliyyat təlimləri başlanır. Belə ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 16-dan 20-dək müdafiə nazirinin rəhbərliyi altında Azərbaycan ordusunun müxtəlif qoşun növləri, qisimləri, hərbi birlik və birləşmələrinin cəlb edilməsi ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri keçiriləcək. Təlimlərdə dağlarda əks-hücum əməliyyatının təşkili və keçirilməsi, düşmən qruplaşmasının darmadağın edilməsi məqsədilə qabaqlayıcı zərbələrin endirilməsi və azad edilmiş ərazilərdə əlverişli hədlərin tutulması üzrə fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulub.

Təlimlərə 10 min nəfərədək şəxsi heyət, 100-dən çox tank və digər zirehli texnika, 120 müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 20-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq. Mürəkkəb şəraitdə, dağ-meşə, qayalıq ərazilərdə və çətin radioelektron mübarizə mühitində keçiriləcək təlim zamanı ön və yandan keçmə dəstələrinin əsas zərbə qruplaşmaları, eləcə də artilleriya, aviasiya və döyüş düzülüşünün digər elementləri ilə qarşılıqlı əlaqədə fəaliyyətin təşkili üzrə tapşırıqlar icra ediləcək. Təlimdə əsas diqqət qoşunların idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsinə, həmçinin döyüş, mənəvi-psixoloji və maddi-texniki təminat məsələlərinə yönəldiləcək. Bütün fəaliyyətlər döyüş atışlı mərhələlərdən ibarət olmaqla döyüş vəziyyətinə maksimal uyğun şəraitdə müxtəlif poliqon və təlim mərkəzlərində keçiriləcək.

Ekspertlər isə Xarici İşlər Nazirliyinin son bəyanatı və bunun ardınca Müdafiə Nazirliyinin genişmiqyaslı əməliyyat təlimlərinə başlaması arasında bir sinxronluğun olmasını da istisna etmir. Bununla işğalçı ölkəyə açıq mesaj verilir ki, danışıqlar yolu ilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində əməli addımlar atmasa, Azərbaycan ordusu qarşısında cavab verməli olacaq. Elə rusiyalı politoloq Dmitri Fetisov da bildirir ki, Nikol Paşinyanın addımları savaş ehtimalını əhəmiyyətli dərəcədə artırır: "Paşinyan Dağlıq Qarabağ mövzusundan siyasi məqsədləri üçün istifadə etmək məsələsində heç də "Qarabağ klanı"ndan geri qalmır. Qarabağ məsələsinin həlli ilə bağlı erməni tərəfində hər hansı irəliləyiş nəzərə çarpmır. Ancaq bu "siyasi xəritə" öz rolunu oynamağa davam edir. Bu, Paşinyanın həm ziddiyyətli açıqlamalarında, həm də erməni tərəfinin cəbhə bölgəsində münaqişəni qızışdırmaq cəhdlərində nəzərə çarpır. Digər tərəfdən, Ermənistanın cəbhə xəttində etdiyi hərəkətlər nəticəsində müşahidə olunan gərginlik yenidən Qarabağ mövzusunu gündəmə gətirə və bütün maraqlı tərəfləri Ermənistan-Azərbaycan münaqişəsinin həllini sürətləndirməyə vadar edə bilər. Bura ilk növbədə Rusiya daxildir".

Yeri gəlmişkən qeyd edək ki, son günlərdə Rusiya rəsmiləri münaqişə ilə bağlı maraqlı açıqlamalar verir. Məsələn, Rusiya baş nazirinin müavini Yuri Borisov qeyd edir ki, Kreml Qarabağ münaqişəsinin alovlanmasında maraqlı deyil. Moskvanın Qarabağ münaqişəsinin aradan qaldırılması tərəfdarı olduğunu vurğulayan Borisov diqqətə çatdırıb ki, Rusiya prezidenti Vladimir Putinin bu istiqamətdə səyləri hamıya məlumdur: "Rusiya bütün vasitələrlə bu münaqişənin aradan qaldırılmasını istəyir". Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə bildirir ki, Moskvanın mövqeyinə görə, hər şey Dağlıq Qarabağ münaqişəsinin həllinə doğru getməlidir. XİN rəsmisinin sözlərinə görə, Azərbaycanla Ermənistan arasında uzun illərdir davam edən ağır və təəssüf ki, həll edilməyən vəziyyətlə bağlı hər şey ona doğru getməlidir ki, bu mürəkkəb və artıq köhnə problem həll edilsin. Zaxarova qeyd edib ki, Rusiya ATƏT-in Minsk Qrupu çərçivəsində bu məsələ ilə bağlı üzərinə götürdüyü öhdəlikləri məsuliyyətlə yerinə yetirir. Rusiyalı ekspert Stanislav Tarasov isə bildirir ki, ölkəsinin rəsmi şəxsləri tərəfindən səslənən bu fikirlər Qarabağ münaqişəsi ətrafında indiki vəziyyət fonunda heç də təsadüfi xarakter daşımır. Onun sözlərinə görə, Rusiya İrəvanın münaqişənin həlli istiqamətində müəyyən addımlar atmasını istəyir və bu baş verməsə, Kreml yeni Qarabağ savaşına neytral mövqe sərgiləməklə Ermənistanı cəzalandıra bilər: "Moskvanın belə mövqe sərgiləməsinin əsas günahını isə, heç şübhəsiz, Paşinyanın hakimiyyətində axtarmaq lazımdır. Ermənistan bizim strateji tərəfdaşımız olmaqdan qaçır. Halbuki, biz iqtisadi birlik çərçivəsində əməkdaşlıq edirik, bizim Gümrüdə hərbi bazamız var. Yəni biz burada tamamilə yad deyilik. Amma Ermənistan hakimiyyəti vəziyyəti dəyişməyə çalışır və bu da Moskvanın xoşuna gəlmir. Xaçaturovun hekayəsini xatırlayın. Ermənistan hakimiyyətinin onunla bağlı addımları və ABŞ-a doğru meyllənməsi Kremldə narazılıq doğurur, Moskva buna qarşıdır. Digər bir hal Şişkin hekayəsinin bizim üçün anlaşılmaz olmasıdır. Ermənilərin özlərini bu cür aparması qəribədir. Məsələ Şişkin deyil, Allah xatirinə, istəyirsiz ona sığınacaq verin... Sarkisyan Paşinyandan bilirsiz nə ilə fərqlənirdi? Sarkisyan Moskvaya düzünü deyirdi, biz Sarkisyanı müdafiə etmirik, biz Köçəryanın lehinə çıxış etmirik. Lakin məsələ burasındadır ki, əvvəlkilər səmimi idilər, biz başa düşürdük. Biz əvvəl bilirdik ki, Ermənistan hakimiyyəti konkret nə düşünür, ancaq indi bilmirik. Təbii ki, bu da Rusiyanın mövqeyinə təsir edir və belə vəziyyətdə Moskvanın Qarabağ məsələsində Ermənistandan uzaqlaşmasında qeyri-adi nəsə axtarmaq da lazım deyil. Baş verənlərdə əsas günahkar mövcud Ermənistan hakimiyyətidir".

Hesab edilir ki, proseslərin indiki inkişaf axarı yenə İrəvan üzündən yeni Qarabağ savaşını istisna etmir. Amma bu dəfə Azərbaycan qarşısında tək qalan Ermənistan qısa zaman kəsiyində darmadağın olacağını da yaxşı bilməlidir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya iqtisadiyyatında baş verənlər yaxın günlərdə manatın xarici valyutalar, xüsusən də dollar və avro ilə kursunda mühüm dəyişikliklərin olacağını deməyə əsas verir. Məsələ burasındadır ki, Çindən sonra ABŞ və Avropa da öz valyutalarını ucuzlaşdırmaqda israrlı tərəf qismində çıxış edirlər.**

# Manat dollar və avro qarşısında kəskin bahalaşacaq - ABŞ və Avropa Bankı yeni prosesə başlayır

Bu vəziyyət indilikdə avro ilə bağlı özünü daha qabarıq surətdə büruzə verir. Elə bunun nəticəsidir ki, son günlərdə avro manata nisbətən nəzərəçarpacaq dərəcədə dəyər itirir. Eyni vəziyyətin dollarla da bağlı qeydə alınması gözlənir. Çünki ABŞ hökuməti dolların ucuzlaşmasında israrlı mövqe sergiləyir.

Bu arada qeyd edək ki, ABŞ prezidenti Donald Tramp faiz dərəcələrini azaltmadığına görə Federal Ehtiyat Sistemini (FES) növbəti dəfə tənqid edib. ABŞ lideri "Twitter" səhifəsində FES-ə baza faiz dərəcəsini sabit saxlayaraq depozit dərəcəsini aşağı salan Avropa Mərkəzi Bankını nümunə göstərib: "Avropa Mərkəzi Bankı cəld tərpənərək dərəcələri 10 faiz bəndi aşağı salıb. Onlar avronu bizim ifrat güclənmiş dollarımız qarşısında ucuzlaşdırmağa çalışır və buna da nail olur. Nəticədə ABŞ-ın ixracatına ziyan vurulur. FES isə sakitcə yerində oturub. Onlara borc pul verməlləri üçün maaş verilir, biz isə faiz ödəyirik!".

Qeyd edək ki, Avropa Mərkəzi Bankı baza faiz dərəcəsini sıfır səviyyəsində saxlayaraq, depozit dərəcəsini mənfi 0,4 faizdən mənfi 0,5 faizədək azaldıb. Kredit dərəcəsinin yuxarı həddi 0,25 faiz səviyyəsində saxlanıb. Bundan sonra Tramp FES-in baza faiz dərəcəsini sıfırda saxlamağa, yaxud da mənfi səviyyəyədək azaltmağa çağırıb. FES buna getsə, dolların dünya miqyasında, o cümlədən Azərbaycanda əhəmiyyətli dərəcədə ucuzlaşması qaçılmaz sayılır. Xatırladaq ki, daha əvvəl FES Trampın çağırışına uyğun olaraq uçot dərəcəsini 0,25 faiz bəndi azaldıb. Qurum uçot dərəcəsini 0, 2,5%-dən 2,25%-ə endirib. Faiz azalması Donald Trampın uçot dərəcəsinin yüksək olması ilə bağlı tənqidləri fonunda baş verib. İndi də Trampın eyni mövqeyi fonunda FES-in analoji addım atması gözlənilir. Xatırladaq ki, FES-in növbəti iclası sentyabrın 18-19-da keçiriləcək. Onu da bildirək ki, 12 regional federal bankdan təşkil olunmuş FES ABŞ-da Mərkəzi Bankın funksiyalarını yerinə yetirir. FES-in budəfəki sentyabr yığıncağı olduqca həssas makroiqtisadi və geosiyasi mühitdə baş tutacağından diqqət mərkəzindədir. Real vəziyyət göstərir ki, 3,7%-lik göstərici ilə ABŞ-da məşğulluğun son 40 ilin ən yüksək səviyyəsində olmasına baxmayaraq, iqtisadiyyatın iş yeri yaratma tempi zəifləyir. Belə vəziyyətdə FES-in uçot dərəcəsini azaltması qaçılmaz sayılır. Üstəgəl, bunun üçün Tramp da təzyiqləri artırır. FES-in sədri Cerom Pauel də uçot dərəcəsinin azalmasını istisna etmir. O bildirir ki, ABŞ iqtisadiyyatı üçün bəzi risqlər var. Pauel, həmçinin, ticarət müharibələri ilə bağlı qeyri-müəyyənliyin işgüzar aktivliyə mənfi təsir göstərəcəyini vurğulayıb. Bu durumda FES-in faiz azaltmasına getməsi və bunun daha yüksək rəqəmlə ifadə olunması qaçılmaz hesab edilir. Belə vəziyyətdə dünya miqyasında dolların ucuzlaşması gözlənir. Azərbaycanda da analoji vəziyyət müşahidə olunacaq. Xatırladaq ki, əslində Mərkəzi Bankın müdaxiləsi olmasaydı, dollar artıq əhəmiyyətli dərəcədə ucuzlaşmışdı. Sadəcə, ilin əvvəlindən Mərkəzi Bank satış üçün nəzərdə tutulan 800 milyon dollarlıq vəsaiti ehtiyatda saxlamağa qərar verib. Bu vəsait bazara çıxarılsa, dollar xeyli ucuzlaşacaq. İndi isə FES-in faiz dərəcəsini endirməyə hazırlaşması dolların ucuzlaşması istiqamətində əlavə təzyiq yaradır və bu şəraitdə Mərkəzi Bankın dolları indiki səviyyədə saxlaması çətin olacaq. Bu səbəbdən dolların ölkəmizdə də dəyər itirməsi gözlənir.



Avro isə artıq manat qarşısında dəyər itirir. Avropa Mərkəzi Bankının baza faiz dərəcəsini sıfır səviyyəsində saxlayaraq depozit dərəcəsini mənfi 0,4 faizdən mənfi 0,5 faizədək azaltması artıq prosesə ciddi təsir edir. Xatırladaq ki, Avropa Mərkəzi Bankı Avropa iqtisadiyyatını stimullaşdırmaq üçün 2014-cü ildən etibarən əmanət dərəcəsinin aşağı salınması praktikasını həyata keçirir. Bununla o, bankları iqtisadiyyata sərmayə qoymağa məcbur edir. Növbəti dəfə belə addımın atılması avronu manat qarşısında da ucuzlaşdırır. Məsələ ilə bağlı iqtisadçı Vüqar Bayramov sosial şəbəkələr üzərindən paylaşdığı şərhində bildirir ki, manatın avroya çarpaz məzənnəsi müəyyənləşdirildiyi üçün milli valyutamızın dollara kursu Avropa puluna münasibətdə həlledici olacaq. Onun sözlərinə görə, Avropa Mərkəzi Bankı gözlənildiyinin əksinə olaraq yumşaq qərar qəbul etsə də, hələlik Avropada avronun möhkəmlənməsinə isti yanaşlmır:"Avropa Mərkəzi Bankının depozit faizlərinin mənfi 0.40 faizdən mənfi 0.50 faizədək endirilməsi barədə qəbul etdiyi qərar valyuta bazarına hələlik təsirsiz ötüşsə də, bu addım funt-sterlinqin zəifləməsi və Ağ Evin dolları ucuzlaşdırmaq istəyi fonunda avronun yaxın zamanlarda möhkəmlənmək imkanlarını xeyli azaltdı. Mərkəzi Bank bu ilin noyabrından etibarən aylıq 20 milyard avroluq bond satışı da həyata keçirmək niyyətindədir. Bond proqramının nə vaxtadək davam edəcəyi barədə hər hansı bilgi verilməyib. Əsas "yenidən-maliyyələşdirmə əməliyyatları" və "marjinal maliyyələşdirmə" fasilitlər üzrə faizlər dəyişməz olaraq sıfır və 0.25 faiz səviyyəsində saxlanıb".

Ekspert bildirib ki, avrozonada proqnozlaşdırılan iqtisadi artıma nail oluna bilinməməsi fonunda ABŞ-Çin ticari münasibətləri də avropalıların monetar qərarlarına təsirsiz ötüşmür: "Bütövlükdə, Avropa Mərkəzi Bankının son qərarı göstərir ki, digər aparıcı rəqiblərin, xüsusən də ABŞ Federal Ehtiyatlar Sisteminin proqnozlaşdırılmayan fors-major qərarları olmayacağı halda avronun kursunun yaxın zamanlarda səbət valyutalara nisbətən möhkəmlənməsi gözlənilmir.

**Manatın avroya çarpaz məzənnəsi müəyyənləşdirildiyi üçün milli valyutamızın dollara kursu Avropa puluna münasibətdə həlledici olacaq. Bu isə o deməkdir ki, avro dollara nisbətən dəyər qazanmayacağı halda bizim valyuta bazarında da möhkəmlənməyəcək".**

***Tahir TAĞIYEV***

**Sentyabrın 13-də Vergilər Nazirliyi, Azərbaycan İqtisadçılar İttifaqı və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə "Kölgə iqtisadiyyatına qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

# Mikayıl Cabbarov gəlirlərini tam şəkildə bəyan etmək istəməyənlərə xəbərdarlıq etdi

*"Kölgə iqtisadiyyatına qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirildi*

Konfransda Azərbaycan, Avstriya, Böyük Britaniya, Gürcüstan, Ukrayna, Rusiya Federasiyası, Latviya, Qazaxıstan və Çilidən olan kölgə iqtisadiyyatı məsələləri üzrə ixtisaslaşmış alimlər, audit və mühasibatlıq üzrə beynəlxalq və yerli qurumların, ölkəmizin dövlət və qeyri-hökumət təşkilatlarının, elmi-tədqiqat institutlarının, özəl sektorun, kütləvi informasiya vasitələrinin, ümumilikdə, 60-dan çox qurumun nümayəndələri iştirak ediblər.

Konfransın keçirilməsində əsas məqsəd iqtisadi inkişafın mühüm amili kimi dəyərləndirilən şəffaflığın və hesabatlılığın səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatına qarşı mübarizənin forma və metodları, maliyyə hesabatlılığı sahəsində qabaqcıl xarici təcrübənin tətbiqi istiqamətləri, maarifləndirmə və əməkdaşlıq sahəsində xarici mütəxəssislərin iştirakı ilə müzakirələr aparılması olub.

Konfransı giriş sözü ilə açan Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə "Qloballaşma şəraitində ölkənin milli strategiyasının prioritet istiqamətləri barədə: reallıqlar və perspektivlər" mövzusunda çıxış etdi. O, son dövrlər ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, kölgə iqtisadiyyatının miqyasının azaldılması, hesabatlılıq və şəffaflıq sahəsində aparılan işlərin əhəmiyyətindən danışdı.

Z.Səmədzadə qeyd etdi ki, "kölgə iqtisadiyyatı"na daha çox kasıb ölkələrdə rast gəlinməsi təsadüfi deyil: "Müstəqilliyin ilkin illərində insanları ilk növbədə yaşamaq uğrunda mübarizə aparmaq maraqlandırırdı, bu sahədə uçot, qeydiyyat aparılması mümkün deyildi. Bu gün isə Azərbaycanda yoxsulluğun, işsizliyin səviyyəsi 4-5 faizə düşüb. Biz artıq oturuşmuş bir dövlət yaratmışıq, Azərbaycanda yoxsulluq, ifrat yoxsulluq ləğv edilib. Bütün bunlar artıq ölkədə "kölgə iqtisadiyyatı"na qarşı mübarizə aparılmasını aktual edir".

Vergilər naziri Mikayıl Cabbarov çıxışı zamanı bir sıra məsələlərə toxundu. Nazir bildirdi ki, "kölgə iqtisadiyyatı" leqal biznesin sıxışdırılmasına, dövlətin və cəmiyyətin maliyyə dayaqlarının zəifləməsinə səbəb olur: "Kölgə iqtisadiyyatı" haqsız rəqabətin yaranmasına və genişlənməsinə, leqal biznesin sıxışdırılmasına, dövlətin və cəmiyyətin maliyyə dayaqlarının zəifləməsinə, işçilərin sosial-iqtisadi hüquqlarının məhdudlaşmasına səbəb olur. Sadalanan hallar ölkənin iqtisadi təhlükəsizliyinə birbaşa təhdidlər yaradır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "kölgə iqtisadiyyatı"nı böyük bəla adlandırıb və onun qarşısının alınması üçün dövlətin və hökumətin siyasi iradəsini bəyan edib, "kölgə iqtisadiyyatı"na qarşı həm inzibati, həm də institusional islahatlarla mübarizə aparılmasının vacibliyini göstərib. "Kölgə iqtisadiyyatı" geniş bir kateqoriyanı əhatə etsə də, Azərbaycanda bu özünü daha çox qeyri-rəsmi məşğulluq, bəyan edilməmiş gəlirlər, ikili mühasibatlığın aparılması kimi göstərir. Vergitutma baxımından da bu, xüsusilə böyük potensialdır və dövlət büdcəsinin gəlirlərinin artırılması üçün olduqca əhəmiyyətlidir".

M.Cabbarov bildirdi ki, vergi orqanlarının şəffaflığın təmin edilməsi ilə bağlı yeni tələblərindən heç də hamı razılıq edə bilməz: "Gəlirlərini tam şəkildə bəyan etmək istəməyənlərin sayı az deyil və illər boyu bəyan olunmayan gəlirlər hesabına qazanc əldə edənlər bununla asanlıqla vidalaşmaq istəmirlər. Bəzən onların səsi gur gələ bilər, lakin hesab edirəm ki, bu, müvəqqəti haldır. Biz dəfələrlə bu fikri vurğulamışıq və yenidən onu səsləndirmək istəyirəm: qanun qarşısında hamı birdir. Qanun qarşısında hamı bərabərdir və leqallaşma sağlam mühit, sağlam rəqabət şəraitidir. Bu təkcə yerli istehsalçılar və sahibkarlar üçün deyil, həmçinin, xarici istehsalçılar üçün əhəmiyyətli amildir".

Nazir onu da vurğuladı ki, "kölgə iqtisadiyyatı" investoru hər hansı sahəyə sərmayə yatırmaqdan çəkindirən ilk üç amil sırasına daxildir. Bizim vəzifəmiz bazarda sağlam rəqabət mühitini təmin etmək, qanunsuz və yalançı sahibkarların yaratdığı ədalətsiz rəqabət şəraitinin ləğvinə nail olmaqdır.

M.Cabbarov bildirdi ki, vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, vergi yükünün və "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılmasına yönəldilən islahatların həyata keçirilməsi şəraitində qeyri-neft-qaz sektorunda dövlət büdcəsinə proqnozdan əlavə vergi daxilolmalarının məbləği 280 milyon manata yaxın olub: "Kölgə iqtisadiyyatı"nın miqyasının azaldılmasına yönəlmiş vergi islahatları sırasında iqtisadiyyatda əmək münasibətlərinin şəffaflaşması mühüm yer tutur".






Nazirin dediyinə görə, pərakəndə ticarət və ictimai iaşə sahələrində çox böyük qeyri-formallıq müşahidə edilir: "Statistika Komitəsi ilə bizim göstəricilər arasında fərq olub. 2018-ci ilin nəticələrinə görə, Dövlət Statistika Komitəsi ilə Vergilər Nazirliyinin rəqəmləri arasında çox böyük fərq olub. Bu fərq təxminən 7 dəfəyə qədər olub. Bu da bir daha "kölgə iqtisadiyyatı"nın həcmini göstərir. Bu il qeyri-neft sektoru üzrə vergi yığımları proqnoza qarşı 280 mln. manat artıq olub ki, bu da proqnoz tapşırığın 112% icra edilməsi deməkdir.

Əmək bazarında şəffaflaşma prosesi artan dinamika ilə gedir. Bu ilin ilk 8 ayında özəl sektorda 88 mindən çox yeni əmək müqaviləsi bağlanıb. Dövlət sektoru da nəzərə alınsa, bu rəqəm 112 minə çatıb. Hansı ki, onun 78%-i özəl sektorun payına düşür. Əmək müqavilələrinin rəsmiləşdirilməsi əsasən ticarət, xidmət, tikinti, sənaye sahələrində qeydiyyata alınıb. Əməkhaqqında da artım qeydə alınıb. Belə ki, minimum əməkhaqqının artırılması ilə bağlı təşəbbüsləri nəzərə almasaq, əməkhaqqının həcmi 20%-dək artıb".

Beynəlxalq elmi-praktik konfransda iştirak edən Azərbaycan Respublikası Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək bildirdi ki, son illər dünyada gedən proseslər "kölgə iqtisadiyyatı" anlayışının daha dərin araşdırılmasını zərurətə çevirib: "Kölgə iqtisadiyyatı" ictimai həyatın bütün sferalarına mənfi təsir göstərmək iqtidarındadır. Bu, dövləti, müəssisələri, vətəndaşları əhatə edir və ümumilikdə, ölkənin iqtisadi gücünə mənfi təsir etməklə yanaşı, insanların həyat səviyyəsini mənfi mənada dəyişdirir. Bu fəaliyyət dövlət büdcəsi gəlirlərini mövcud potensialdan əhəmiyyətli dərəcədə kənarlaşdırmaqla mümkün xərc istiqamətlərini, xüsusilə də investisiya imkanları və dövlətin sosial funksiyalarını məhdudlaşdırır. Digər tərəfdən, "kölgə iqtisadiyyatı" müəssisələrin rəqabətliliyinin ədalətsiz olaraq gücləndirilməsinə, qeyri-rəsmi uçotun çiçəklənməsinə, vergi və sosial sığortadan yayınmaya imkan yaratmaqla, ümumilikdə, sosial-iqtisadi potensialın reallaşdırılmasına problemlər yaradır".

Konfransda iştirak edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev çıxış edərək bildirdi ki, qeyri-rəsmi məşğulluq vətəndaşları sosial müdafiə tədbirlərindən kənarda qoyur. Ona görə də məşğulluğun rəsmiləşdirilməsi üçün xüsusi tədbirlər planı hazırlanıb icra edilir: "İşsizlikdən sığorta sisteminin yaradılması işaxtaran vətəndaşların sosial müdafiəsini diqqətdə saxlamağa imkan verir. Bu sahəni stimullaşdıran kompleks tədbirlər görülür. Həmin tədbirlər arasında Vergi Məsələlərində işçilərin gəlir vergisi ilə bağlı dəyişikliklər mühüm yer alıb. Məlumat üçün bildirim ki, indiyədək 7 minə yaxın vətəndaş özünüməşğulluq proqramına cəlb edilib və yaxın vaxtlarda məşğul vətəndaşların vahid reyestrinin yaradılması planlaşdırılır".

"Kölgə iqtisadiyyatı"na qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi" adlı beynəlxalq elmi-praktik konfransda iştirak edən Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış edərək bildirdi ki, hələ də topdansatış mərkəzlərində qeydiyyatsız mallar var və bu, gömrük orqanlarını düşündürür. Bu il 1 milyard 300 milyon manat əlavə vəsait toplanmalı idi. Aparılan tədbirlər nəticəsində bu hədəf daha 500 milyon manat artırılıb. Artıq Azərbaycan bazarında 4 milyard manatlıq malın qeydiyyatı və uçotu təşkil olunub.

DGK-nin sədri onu da əlavə etdi ki, mövcud risqlərin və baş verə biləcək risqlərin qiymətləndirilməsi "kölgə iqtisadiyyatı"na qarşı mübarizə üçün seçilən istiqamətlərdən biridir: "Bu halda qaçaqmalçılıqla bağlı mübarizəyə xüsusi diqqət yetirilir. Digər tərəfdən, xüsusi imtiyaz verilmiş şəxslər tərəfindən kommersiya məqsədi üçün nəzərdə tutulmadığı adı altında belə fəaliyyətlə məşğul olan işbazlar formalaşıb. Bu işbazlarla da mübarizə aparılır".

Qeyd edək ki, konfransda, ümumilikdə, 30-a yaxın təqdimat dinlənib və müzakirə edilib.

***Günel CƏLİLOVA***

# Vüqar Gülməmmədov beynəlxalq konfransda nələri dedi?

**"Kölgə iqtisadiyyatına qarşı mübarizə - iqtisadi inkişafın mühüm amili kimi" mövzusunda təşkil edilmiş elmi-praktik konfransda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Kölgə iqtisadiyyatı ilə mübarizədə ali audit orqanlarının rolu" mövzusunda çıxış edib. Çıxışdan xülasəni təqdim edirik:**



- Kölgə iqtisadiyyatı ictimai həyatın bütün sferalarına təsir göstərmək iqtidarında olan bir iqtisadi fəaliyyətdir. Bu təsir dövləti, müəssisələri, vətəndaşları əhatə edir və ümumilikdə dövlətin iqtisadi gücünə mənfi təsir etməklə yanaşı, ölkədə həyat səviyyəsini dəyişdirir. Bu fəaliyyət dövlət büdcəsi gəlirlərini mövcud potensialdan əhəmiyyətli kənarlaşdırmaqla, mümkün xərc istiqamətlərini, xüsusilə də investisiya imkanları və dövlətin sosial funksiyalarını məhdudlaşdırır. Beynəlxalq təcrübə göstərir ki, bütün dövlət üzrə konsolidə edilmiş maliyyə hesabatlarının tərtibi ölkənin real vəziyyətini təsvir etməklə dövlət resurslarının idarə edilməsi üzrə uzunmüddətli dövr üçün daha tarazlı qərar qəbul edilməsinə imkan yaradır. Bu baxımdan bu tip hesabatların tərtibi vacib və əhəmiyyətli məsələdir. Lakin hal-hazırda ölkəmizin büdcə qanunvericiliyi sözügedən maliyyə hesabatlarının tərtib olunmasını nəzərdə tutmur. Qeyd edim ki, təkcə dövlət sektoru üçün deyil, eyni zamanda, yalnız dövlət büdcəsindən maliyyələşən orqanların ümumiləşdirilmiş maliyyə hesabatlarının da konsolidasiyası aparılmır. Büdcə qanunvericiliyi ilə bağlı normativ-hüquqi bazanın qeyri-təkmil olması, mühasibat uçotu və maliyyə hesabatları ilə bağlı islahatların başa çatmaması və bu sahədə müntəzəm şəkildə qaydaların yenilənməsi, maliyyə hesabatlarının tərtibi ilə bağlı resursların və təcrübənin çatışmazlığı hesabatların konsolidə edilməsində əsas manelərdəndir. Eyni zamanda, büdcə vəsaitlərinin ayrı-ayrı istifadəçilərinin maliyyə hesabatlarının və konsolidə olunmuş maliyyə hesabatlarının auditi ilə bağlı inzibati resursların məhdudluğu və bu auditdə təcrübə azlığı Hesablama Palatası tərəfindən səlahiyyətlərinin yerinə yetirilməməsi sahəsində ciddi çağırışlardır. Qeyd edilənlər, həmçinin maliyyə hesabatlarının auditinin keyfiyyətinə də mənfi təsir göstərir. Hesablama Palatası daxili nəzarət sisteminin mövcud olduğu qurumların bir çoxunda bu sistemin tam formalaşdırılmadığını, həmçinin zəif fəaliyyətini aşkarlayır. Belə ki, eyni dövr üzrə aparılan auditlər zamanı aşkar edilən nöqsanlar daxili nəzarət sisteminin aşkar etdiyi nöqsanları həm say, həm çeşid, həm də məbləğ nöqteyi-nəzərindən dəfələrlə üstələyir.

# Banklar kiçik sahibkarlıqla məşğul olanlara niyə kredit ayırmır?

**Bütün dünyada iqtisadiyyatın inkişaf lokomotivi olaraq kiçik və orta sahibkarlıq (KOS) qəbul edilir. KOS iqtisadi fəallığın, məşğulluğun təminatında, ən əsası isə orta təbəqənin formalaşmasında həlledici söz sahibi hesab olunur. Bu baxımdan, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı çoxdan zərurətə çevrilib.**

*"...kiçik sahibkarlarda sənədləşmə ilə bağlı vəziyyət yaxşı deyil"*

Danılmaz faktdır ki, ölkə hökuməti bu sahədə inkişafa nail olmaq üçün müxtəlif addımlar atır. Prezidentin fərmanı ilə 2017-ci ildə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb. Mikro, kiçik və orta biznesin (KOB) inkişafının dəstəklənməsi, ölkə iqtisadiyyatında kiçik və orta biznesin (KOB) rolunun artırılması, onların maraqlarının müdafiəsi, KOB-lara vahid məkan prinsipi ilə xidmətlərin göstərilməsi, dövlət və özəl qurumların bu sahədə fəaliyyətinin əlaqələndirilməsi qurumun başlıca fəaliyyət istiqamətləridir.

Kiçik və orta sahibkarlığın inkişafı istiqamətində dövlət tərəfindən mühüm addımlar atılmasına baxmayaraq, bank sektoru hələ də qeyd olunan sahəyə kredit ayırmaqda maraqlı deyil. Açıqlanan statistik rəqəmlərə əsasən, banklar kiçik sahibkarlara kredit ayırmaqda həvəsli deyil.

Mərkəzi Bankın 2019-cu ilin iyuluna aid olan məlumatına əsasən, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilən kreditlərin həcmi 503 milyon manatdır. Bu göstərici 2017-ci illə müqayisədə az olsa da, 2018-ci ilə nisbətən bir qədər artıb. Ötən ilin sonunda fiziki şəxs kimi sahibkarlıq fəaliyyəti göstərənlərin kredit borcu 499 milyon manat idi. Yeddi ay ərzində kiçik sahibkarların kreditləri 3 milyon manat artıb ki, bu da zəif göstəricidir.

Millət vəkili Rüfət Quliyev qeyd etdi ki, kiçik sahibkarların başladığı layihələr sonralar böyük layihəyə çevrilir. Bu səbəbdən də banklar kiçik sahibkarlıqla məşğul olmaq istəyənlərə dəstək olmalıdırlar: "Kiçik sahibkarlığın inkişafı iqtisadiyyatın dayanıqlı inkişafı üçün çox vacibdir. Ona görə də dünyanın bir çox ölkəsində kiçik sahibkarlığa müxtəlif formada dəstək proqramları mövcuddur. Təbii ki, bu kimi dəstək formalarının effektiv olması hər kəsi düşündürür. Effektiv üsullardan biri isə sahibkarlara hazır layihələrin təklif olunmasıdır. Əslində, bu, sahibkarları bir çox xərcdən azad edir. Beləliklə də layihə əlavə dəstək formasına çevrilir. Hər bir belə kiçik layihə potensial olaraq iri layihələrin bünövrəsi ola bilir".

***Rüfət Quliyev:** "Banklar kiçik sahibkarlıqla məşğul olmaq istəyənlərə dəstək olmalıdırlar, çünki onların başladığı layihələr sonradan böyük layihəyə çevrilir"*




Millət vəkili onu da vurğuladı ki, kiçik sahibkarlıqla məşğul olanların biznesi lazımi səviyyədə deyil: "Bunun səbəbi sahibkarlıqla məşğul olanların fəaliyyəti ilə bağlıdır. Belə ki, banklar kredit verəndə kredit istəyənin maliyyə vəziyyətinə, mühasibatlığa, vergi ödənişlərinə dair sənədləri görmək istəyirlər. Kiçik sahibkarlarda sənədləşmə ilə bağlı vəziyyət yaxşı deyil. Bank bu sənədlərə baxmaqla sahibkarların dövriyyəsi, gəlir və xərci, idarəetmə vəziyyəti haqqında məlumat əldə etmək istəyir. Kredit verən borcalanın maliyyə vəziyyətini bilmədən ona vəsait ayıra bilməz. Kiçik sahibkarlar arasında kreditlərin geri qaytarılma vəziyyəti yaxşı deyil".

***Günel CƏLİLOVA***

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) böyük elm-təhsil məbədi olsa da, son illər bu ali təhsil müəssisəsinin adı bir sıra xoşagəlməz olaylarda hallandırılır. Məlumatlara görə, bir sıra elm adamları, tanınmış pedaqoqlar, müəllimliklə məşğul olan incəsənət xadimləri bu universitetdən əsassız olaraq uzaqlaşdırılıb.**



# Daha bir bədii qiraət ustasını İncəsənət Universitetindən qaçırdılar - Məleykə xanım...

*"İstəyirəm ki, səsim cənab Prezident İlham Əliyevə, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya və təhsil naziri Ceyhun Bayramova çatsın"*

1991-ci ilin yanvarından ADMİU-da işləməyə başlayan sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, səhnə hərəkəti və dram rejissorluğu kafedrasının sabiq müəllimi, tanınmış bədii qiraət ustası Məleykə Alıoğlu da artıq 2 ildir bu ali məktəbdən çıxarılıb və hər gün doğma təhsil ocağına bərpa ediləcəyi günü gözləyir.

Məleykə Alıoğlu "Bakı-Xəbər"in qonağı oldu və işdən uzaqlaşdırılmasının səbəblərini bizimlə bölüşdü.

**- Məleykə xanım, Sizin kimi bir mütəxəssisin, elm və incəsənət adamının ADMİU-dan uzaqlaşdırılması ilə bağlı məlumatlar yayılıb. Həqiqətənmi Siz uzun illər çalışdığınız ali təhsil ocağından uzaqlaşdırılmısınız?**

- Təəssüf ki, deyilənlər həqiqətdir. Səhhətimdə ciddi problem vardı, eyni zamanda da hədsiz dərəcədə yorulmuşdum. Həmin ərəfədə tamaşada da rol oynamışdım, bir sözlə, çox gərgin idim, auditoriyaya girəcək vəziyyətdə deyildim. 2017-ci ilin noyabr ayının təxminən 18-19-u olardı, həmin tarixdə universitetin rektoru işləyən Fərəh Əliyevanın qəbuluna getdim və ərizə ilə rektordan öz hesabıma heç olmasa 1-2 aylıq məzuniyyət istədim. O da ərizəmə baxıb çox böyük ərklə "Məleykə, ayıbdır, sən niyə mənə ərizə yazırsan? Mən sənin bizim dəyərli müəllimlərimizdən olduğunu bilirəm, götür ərizəni" dedi. Fərəh xanımın Mədəniyyət və İncəsənət Universitetində rektor işlədiyi müddətdə ilk dəfə idi ki, onun qəbuluna getmişdim. Düzdür, bəzi məsələlərlə bağlı prorektorun qəbulunda olmuşdum, o da demişdi ki, Fərəh xanımı narahat etməyin, bu bizə aid məsələdir. Lakin səhhətimdə yaranan ciddi problem məni Fərəh xanıma müraciət etməyə sövq etmişdi. Fərəh xanım mənə "ərizəni götür" dedikdən sonra həmin ərizəni qatlayıb çantama qoydum. Əslində, həmin ərizəni əvvəlcə universitetin kadrlar şöbəsinə verib getmişdim və üstündən yarım saat keçməmiş məni aradılar ki, rektor səni görmək istəyir, mən də o ərizəni oradan götürüb rektorla görüşdüm. Sonra yuxarıda sadaladığım hadisə baş verdi. Rektor mənim yanımda harasa zəng vurdu və dəstəyi asdıqdan sonra mənə dedi ki, Məleykə xanım, dekabrda sənin seçkindir, ona görə də gedə bilməzsən, qal seçkində iştirak et.

**- Söhbət hansı seçkidən gedir?**

- Prosedur qaydalarına görə, hər 5 ildən bir ali məktəbdə ştatda olan müəllimlər öz yerlərinə təsdiqlənirlər. Müəllim 5 il ərzində gördüyü işlərin, fəaliyyətinin hesabatını hazırlayır. Sonra kafedrada gizlin səsvermə keçirilir və müəllim təsdiqlənir.

**- Siz seçkidə iştirak etmədiniz?**

- Xeyr. Bilirsiniz, mən həmişə auditoriyaya böyük enerji ilə daxil olmuşam və istəmədim ki, miskin halda tələbələrin qarşısına çıxam. Müəllim formada olmadıqda auditoriyaya necə girə bilər? Mən rektordan soruşdum ki, seçki ilə bağlı başqa variant nədir? Fərəh xanım dedi ki, gərək sən öz ərizənlə işdən çıxasan və mən səni sentyabr ayında işə bərpa edəcəyəm. Fərəh xanım mənə işdən çıxmaq haqqında ərizə yazdırmaq istəyirdi, çalışırdı ki, ərizəni yazım, lakin mən onun dediyini etmədim. Çünki inanmadım ki, ərizəmlə işdən çıxdıqdan sonra Fərəh xanım məni yenidən universitetə bərpa edə.

**- İnanmamağınız üçün bir səbəbinizmi vardı?**



*"İşdən öz ərizəsi ilə uzaqlaşdırılan həmkarlarımdan fərqli olaraq, mən o ərizəni yazmadım"*

- Bəli, çünki Fərəh xanım mənə qədər bir çox müəllimi dilə tutub onların hər hansı bir problemi çıxdıqda bu və ya digər şəkildə öz ərizəsi ilə işdən uzaqlaşdırmışdı. Yəni müəllimi öz ərizəsilə işdən çıxarmağa nail olub. Müəllimlər də sonra bir daha bu ali məktəbə qayıtmayacaqlarını anlayıblar. O bu universitetə rəhbərlik etdiyi dövrdə ali məktəbdə uzun illər fəaliyyət göstərən təcrübəli müəllim kadrlarının hərəsini bir bəhanə ilə bu məkandan uzaqlaşdırıb, onların yerinə isə çox vaxt bizim sahəyə aidiyyəti olmayanları götürüb. İşdən öz ərizəsi ilə uzaqlaşdırılan həmkarlarımdan fərqli olaraq, mən o ərizəni yazmadım. Fərəh xanımın yanından çıxdıqdan 2-3 gün sonra eşitdim ki, işdən çıxmaq haqqında əmrim verilib. Halbuki, mən ərizə yazmamışdım. Eyni zamanda, eşitdim ki, qəzetdə mənim vəzifəmlə bağlı vakansiya elan edilib. Halbuki, onun özü demişdi ki, sənin elanın dekabrda veriləcək. Mən getdikdən dərhal sonra qəzetdə elanın çıxması şübhə doğurmurmu? Bunun da üstündən 1 həftə keçməmiş mənim 5 ilimin tamam olması haqqında əmr verib. Mən də evdə müqavilə sənədlərinə baxanda gördüm ki, 5 il əvvəl mənim elanım noyabrın 1-də çıxıbmış və noyabrın 31-i işə bərpa edilməyim haqda əmr verilibmiş. O mənim seçkimim noyabrın 1-də elan edilməli olduğunu bilirmiş, amma qəsdən bunu gecikdirib ki, mən hansısa bir "ÇP" etsəm, məni işdən azad etsin. Halbuki, qəzetə verilən elanın müddəti 1 aylıqdır və şəxs o müddətdə öz yerinə təsdiqlənmək üçün ərizə verməli idi, lakin bunun üçün mənə şərait yaradılmadı.

İşdən qanunsuz azad edilməyimlə bağlı xəbəri eşidəndə çox sarsıldım, həyatın dibinə düşdüm. Fərəh xanımın qəbulunda olarkən ona demişdim ki, Fərəh xanım, mən bu universitetə canımı qoymuşam, həmişə ən məsuliyyətli müəllim olmuşam, işimə zərgər dəqiqliyi ilə yanaşmışam, indiyə qədər bir dənə də olsa töhmət almamışam, mənə hər hansı bir xəbərdarlıq edilməyib, hətta anam rəhmətə getdiyi günün səhərisi işə gəlmişəm, yəni işimə çox məsuliyyətlə yanaşmışam, olmazmı siz seçkimin vaxtını heç olmasa 1-2 ay uzadasınız, bu sizin səlahiyyətinizdə olan məsələdir. O mənə "mən o müəllimin seçkisinin vaxtını uzadıram ki, onu çıxarmaq istəyirəm, onda bir "ÇP" axtarıram. Sən mənim dəyərləndirdiyim müəllimlərdənsən, sənin seçkinin vaxtını niyə uzatmalıyam" cavabını verdi. İkinci tədris ili başlayandan sonra yenə də Fərəh xanımın yanına getdim. Dedim Fərəh xanım, mən öz işimə başlaya bilərəmmi? Dedi ki, indi gecdir, dərs yükünü müəllimlərə paylamışıq, onlar maas almır, sadəcə, onların yükü çoxalıb. Mən də bildirdim ki, öz dərsimi özümə verin keçim, çünki kafedrada yeganə ştatda olan müəllim mən idim. Çünki məndən əvvəl kafedranın ştatlı müəllimlərinin hamısını çıxarmışdı. Mən əvvəl kafedra müdiri də işləmişəm, prosedur qaydalarını yaxşı bilirəm, tam mümkün idi. Amma o mənə dedi ki, get, söz verirəm, sentyabrda səni işinə bərpa edəcəyəm, getdim və susdum... Bu hadisə 2018-ci ilin martında baş vermişdi, həmin ilin sentyabrında isə mən işə bərpa ediləcəyimi gözləyirdim. O mənə "get elmi işini rahat şəkildə işlə" dedi. Düşündüm ki, gedim doktorluq işimi tamamlayım. Çünki Mədəniyyət və İncəsənət Universitetinin doktorantıyam. Açığı, o vaxt mən bu məsələni qabartmadım, fikirləşdim ki, öz işimə bərpa ediləcəyəm, yenidən öz kollektivimə qayıdacağam. Həm də heç zaman istəmirdim ki, doğma universitetimin adı neqativ məsələlərdə hallandırılsın.

**- Fərəh xanım sizi nə üçün yenidən öz işinizə bərpa etmədi?**

- Həmin ilin may ayında mətbuatdan oxudum ki, Fərəh xanım yüksək vəzifəyə təyin edilib. Bu halda çıxılmaz vəziyyətdə qaldım. Düşündüm ki, rektorun səlahiyyətlərini icra edən prorektor Validə Məmmədovanın qəbuluna gedim, o həm də ali məktəbdə müəllimim olub. Avqustun sonlarında bərpa edilməyimlə bağlı Validə xanıma müraciət etdim ki, siz hazırda rektorun səlahiyyətlərini icra edirsiniz, indi dərs yükü bölünür, mənə dərs saatı verin. O da bildirdi ki, hələ bilmirik nə qədər tələbə qəbul olunacaq, bu haqda hələlik məlumatımız yoxdur, seçkiyə girsən, sənə ilk səs verən mən olacağam, sən gözlə. Hiss etdim ki, Validə xanım da mənim işə bərpa olunmağımı, burada dərs deməyimi istəmir. Onun yanından qayıtdıqdan sonra gözləmə mövqeyində dayandım ki, bəlkə yeni gələn rektor müşkülümü həll edə bilər. Mən uzun müddət universitetə, səhnə hərəkəti və dram rejissorluğu kafedrasına dəvət ediləcəyim günü gözlədim, indiyə qədər də gözləyirəm. Çünki o kafedrada yeganə elmi dərəcəsi olan müəllim, teatr rejissorluğu ilə bağlı kadr mən idim. Hazırda həmin kafedrada bir nəfər də olsa elmi dərəcəsi olan müəllim yoxdur.

*(Ardı 14-cü səh.)*

**Azərbaycan mədəniyyətində, incəsənətində, ədəbiyyatında elə nəhəng simalar var ki, bəzən onlarla bağlı sosial şəbəkələrdə və yerli mediada xoşagəlməz yazılara, fikirlərə rast gəlirsən. Böyük sənətkarlarımızın şəxsiyyətinə kölgə salan və onlar haqqında yanlış təsəvvür yaratmağa xidmət edən bu yazılar əksər hallarda sensasiya naminə bəzi KİV-ə ayaq açır.**

# Əbülfəs Qarayevin "media tövsiyələrinə" sənət adamlarının reaksiyaları...



***Baba Vəziroğlu:** "...media öz əsərləri, ifaları, obrazları ilə Azərbaycan mədəniyyətində, xalqımızın yaddaşında iz salan mədəniyyət, incəsənət xadimlərinin xatirəsinə həssaslıqla və ehtiramla yanaşmalıdır"*

***Roza Cəlilova:** "Nazirin mediaya çağırışını dəstəkləyirəm"*

Bəzi hallarda bir sənətkar haqqında başqa bir sənətkar öz müsahibəsində xoşagəlməz fikirlər səsləndirir.

Çoxlarımızın peşə təcrübəmizdə belə müsahiblər olub, lakin çoxlarımız o nəhəng şəxsiyyətlərin ruhuna ehtiram olaraq həmin ifadələri yazılarımızda əks etdirməmişik. Sözsüz, böyük insanın böyük, kiçik insanın kiçik nöqsanı olar. Bir də ki, o böyük sənətkarlar elə əsərlər, obrazlar, ifalar miras qoyub gediblər ki, onlar minillər yaşayacaq və xalqımızın mədəniyyət xəzinəsini daha da zənginləşdirəcək.

Mədəniyyət naziri Əbülfəs Qarayev sentyabrın 12-də Muzey Mərkəzində teatr-konsert müəssisələrində yeni mövsümün açılışına həsr olunmuş brifinqdə bu məsələyə toxunaraq deyib ki, media nümayəndələri görkəmli mədəniyyət və incəsənət xadimləri, böyük şəxsiyyətlər haqqında yazarkən ehtiyatlı olmalıdırlar.

Bununla bağlı media nümayəndələrinə də çağırış edən nazir bildirib ki, bunu əsasən sensasiya xatirinə edirlər: "Bəzən mediada sensasiya xatirinə bir material, kiminsə haqqında mənfi fikrin səsləndirilməsi, əslində, bizim bədxahlarımıza mövzu vermiş olur. Sənət adamlarının hər biri xalqımızın mənəviyyatı üçün çalışırlar, yaradıcılıq üslubları, əsərləri fərqli olsa da. Misal olaraq, bütün rəssamlar eyni cür rəsmlər çəkməlidir? Ancaq kimsə pisdir deməklə nə əldə olunur? Hər musiqiçi eyni tərzdəmi ifa edir? Hər kəsin zövqü fərqlidir. Tənqid də peşəkarlığa əsaslanmalıdır. Daxili etik senzuranı da dinləmək lazımdır. Kiminsə dediyini olduğu kimi yazmaqla iş bitdi demək olmaz. Unutmayaq ki, bizi istəməyən qüvvələr bizi öz silahımızla vurmağa çalışırlar" - deyə nazir qeyd edib.

Əməkdar incəsənət xadimi, görkəmli şair Baba Vəziroğlu "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan mediasında bəzi hallarda tarixi şəxsiyyətlərlə, görkəmli elm, mədəniyyət, incəsənət, ədəbiyyat xadimləri ilə bağlı yazılar hazırlanarkən onların şəxsi keyfiyyətləri qabardılır, çox zaman onların xarakterindəki mənfi çalarlar önə çıxarılır. "Çox təəssüflər olsun ki, bəzən media mənsubları Azərbaycanın böyük şəxsiyyətləri haqqında yazarkən diqqətli olmurlar. Bəzən görürsən ki, elə insan haqqında onun cəmiyyətə məlum olmayan elə xarakterini qeyd edirlər, adam məəttəl qalır. Bu kimə lazımdır? Bu mənada, mədəniyyət naziri Əbülfəs Qarayevin tövsiyəsini dəstəkləyirəm. Nazirin çağırışı haqlı tövsiyədir və media öz əsərləri, ifaları, obrazları ilə Azərbaycan mədəniyyətində, xalqımızın yaddaşında iz salan mədəniyyət, incəsənət xadimlərinin xatirəsinə həssaslıqla və ehtiramla yanaşmalıdır. Bircə qüsursuz Allahdır. Hər bir insanın isə qüsuru, nöqsanı olur. Böyük şəxsiyyətlərin sənətlərinə qiymət vermək lazımdır, onların şəxsi keyfiyyətlərinin qabardılması düzgün deyil. Ümumiyyətlə, sənətkarı uzaqdan müşahidə edəndə onu qüsursuz görürsən, çünki onun sənəti qüsursuz, nöqsansızdır. Hesab edirəm ki, media, jurnalistlər tarixi şəxsiyyətlər, mədəniyyət və incəsənət xadimləri haqqında yazarkən onların şəxsi keyfiyyətlərinə toxunmamalıdırlar. Media nümayəndələri yazarkən çalışmalıdırlar ki, görkəmli mədəniyyət-incəsənət xadimlərinin şəxsiyyətinə toxunacaq, ruhlarını incidəcək hansısa fikrə yer verməsinlər. Ümumiyyətlə, media heç bir böyük şəxsiyyətin şəxsi keyfiyyətlərini təftiş etməməlidir. Elə müqəddəs dəyərlər, şəxsiyyətlər var ki, onları təftiş etmək olmaz" - deyə müsahibimiz bildirdi.

Xalq artisti, görkəmli rəqs ustası Roza Cəlilova da hesab edir ki, Azərbaycan mədəniyyətini, musiqisini, rəqsini, ədəbiyyatını yaradan dahi şəxsiyyətlər haqqında yazılarda onların sənətləri, sənətdə qoyduqları izlər qabardılmalıdır. "Əbülfəs müəllim həmişə mədəniyyət xadimlərinin, incəsənət ustalarının qədir-qiymətini bilib, onlara böyük dəyər verib. Nazir yalnız həyatda olan korifeylərin, mədəniyyət və incəsənət xadimlərinin qeydinə qalmır, həm də dünyasını dəyişmiş şəxsiyyətlərin xatirəsini əziz tutur.

Çox zaman mətbuatda bəzi həmkarlarımız haqqında xoşagəlməz fikirlər yer alır, onların şəxsi keyfiyyətləri müzakirə edilir. Mən bunu qəbul etmirəm. Böyük sənətkarlar özlərindən sonra tükənməz xəzinə qoyub gediblər. Nazirin mediaya çağırışını dəstəkləyirəm və hesab edirəm ki, o bu çağırışı zamanında edib" - deyə R.Cəlilova vurğuladı.

***İradə SARIYEVA***

---

*(Əvvəli 13-cü səh.)*

Ceyran Mahmudova bu ali məktəbə rektor təyin edildikdən sonra da məni axtarıb arayan olmadı. Mən təkrar Fərəh xanıma üz tutdum, ona dəfələrlə məktublar ünvanladım, amma o, məktublarıma cavab vermədi. Qərara aldım ki, onun qəbuluna gedəm və getdim də. Dedim ki, Fərəh xanım, sizə dəfələrlə məktub yazmışam, amma cavab verməmisiniz. O mənə həmin məktubları aldığını bildirdi və dedi ki, bu il həmin kafedraya qəbul olmayıb, yəqin ona görə də səni dəvət etməyiblər, bir də ki, orada dərs saatı yoxdur. Fərəh xanımın bu gün də bu ali məktəblə əlaqəsi var və hətta o burada dərs yükünə də müdaxilə edir. Fərəh xanımın qəbulunda olanda o mənə dedi ki, nə yaxşı bədii qiraətlə məşğul olmursunuz? Mən də dedim ki, bədii qiraətlə məşğul oluram, bundan pul qazanmıram, qiraət mənim mənəvi rahatlığımı təmin edir, amma müəllimlik, elmi fəaliyyət mənim sənətimdir, maddi rifahımın həll olunduğu işdir. Axı mən o maaşla dolanırdım. Sonra mənə məsləhət gördü ki, get Ceyran xanımla görüş, mən səni ona tapşırmışam. Çox rahatlıqla Ceyran xanımın qəbulunda oldum, o məni əvvəl tanımadı, ümumiyyətlə, tanımaq istəmədi. Mən ona deyəndə ki, bu ali məktəbdə əmək fəaliyyətinə laborantlıqdan başlamışam, məndən "laborantsınız?" deyə soruşdu. Dedim xeyr, Ceyran xanım, mən sənətşünaslıq üzrə fəlsəfə doktoruyam, dosentəm, Fərəh xanım mənimlə bağlı sizinlə danışıb. Cavab verdi ki, mənə sizin barənizdə heç kəs heç nə deməyib, amma görək bu sentyabrda qəbul olacaqmı, heç dərs saatı bizim öz müəllimlərimizə çatmır, siz hazırda bizdə işləmirsiniz, əvvəlcə öz müəllimlərimizin dərs saatı tamamlanmalıdır. O da mənim işimi sentyabra qoydu. Dediyi vaxt getdim, dedi ki, cəmi 25 nəfər qəbul olunub, onların 3 nəfəri teatr rejissorluğunu istəyir. Mən də dedim ki, mən burada böyümüşəm, burada işləmişəm, məni işimə bərpa edin, dedi ki, dərs saatı yoxdur, mən öz müəllimlərimi çıxarıb səni götürəsi deyiləm ki. Dedim ki, o kafedranın yeganə ştatlı elmi dərəcəsi olan müəllimi mən olmuşam, orada elmi dərəcəsi olan müəllim var? Kafedraları kəsib parçaladınız, bir-birinə caladınız, bir-birinə aid olmayan kafedraları birləşdirdiniz. Bir də Ceyran xanım mənə dedi ki, sənin problemin Fərəh xanımla olub, gedin onunla da həll edin, mən sizi işdən çıxarmamışam. Mənə elə gəldi ki, universitetin heç bir probleminin bu rektora aidiyyəti yoxdur.

Onu da deyim ki, universitetdə bir sıra kafedraların birləşdirilməsi, yüksək ixtisaslı müəllimlərin xeyli hissəsinin buradan uzaqlaşdırılması, dəxilsiz adamların kafedra müdirləri, müəllim təyin edilməsi həqiqətən də bu ali məktəbə qəbul olunmaq isəyənlərin sayına mənfi təsir göstərib. Mən Mədəniyyət və İncəsənət Universiteti haqqında hər zaman düşünürəm, burada böyümüşəm, bura mənim doğma ocağımdır, ona görə də həmişə narahat oluram. Heç vaxt doğma universitetimin adının mənfi istiqamətdə hallandırılmasını istəməmişəm.

**- Hazırda pedaqoji fəaliyyətdən uzaq düşmüsünüz... Amma yenidən ADMİU-ya bərpa ediləcəyinizdən ümidinizi üzmürsünüz?**

- Mən bu ali məktəbdə böyümüşəm, dərs demişəm, tələbələr yetişdirmişəm, sonra isə keçmiş rektorun ədalətsiz münasibətilə üzləşmişəm. Universiteti fərqlənmə ilə bitirəndən sonra AMEA-nın aspiranturasını bitirdim. Müdafiə edib, laborantlıqdan başlayıb dosentliyə qədər yol gəldim. Bir neçə monoqrafiyanın, dərs vəsaitlərinin, metodiki vəsaitlərin, proqramların müəllifiyəm. İşlədiyim şöbədə teatr rejissorluğu ilə bağlı müdafiə edən yeganə kadrlardanam. Böyük ağrıdır. Mənim ixtisasım bir tək bu universitetdə var. Bu yaşımda gedəcəyim ikinci bir yer yoxdur. Axı öz hesabıma məzuniyyət haqqım idi. Mən niyə işdən çıxarılmalı idim? Bunun üçün ciddi bir səbəb olmalı idi? Bir həftə işə getməmişəm töhmət versin, xəbərdarlıq etsin, maaşımı kəssin, amma işdən çıxarmaq nədir? Heç vaxt məzuniyyətə çıxmamışdım. Ona görə də nəticəsinin nə olmasından asılı olmayaraq, haqqımı sona qədər tələb edəcəyəm. Mən istəyirəm ki, səsim cənab Prezident İlham Əliyevə, ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya və təhsil naziri Ceyhun Bayramova çatsın, onlar mənim səsimə səs versinlər. Cənab Prezident, hörmətli Mehriban xanım, hörmətli təhsil naziri Ceyhun müəllim, mən haqsızlıqla üzləşmişəm, aldadılmışam. Mən ölkə başçısına, Birinci vitse-prezidentə, təhsil nazirinə müraciət etmək məcburiyyətində qaldığım üçün onlara üz tutmuşam. Mən ancaq özümün pozulmuş və tapdanmış haqlarımdan deyil, həm də Fərəh xanımın rektorluğu dövründə haqsız yerə işdən uzaqlaşdırılan bir sıra həmkarlarımdan danışmaq istəyirəm. Ənvər Vəliyev, Könül Axundova, Əzizağa Quliyev, Zülfiyyə Eldarqızı, Məsmə Qubadova və başqaları da belə haqsızlıqla üzləşiblər. Nə üçün elmi dərəcəsi olmayanlara "yaşıl işıq" yandırılır, elmi dərəcəsi olanlara isə yox. Mənim cənab Prezidentdən, Mehriban xanımdan və təhsil nazirindən gözləntilərim var, ümid edirəm ki, üzləşdiyim problemin həlli ilə bağlı onlardan dəstək alacağam.

**- Bayaq dediniz ki, Fərəh xanım rektor olduqdan sonra bir neçə müəllim əsassız olaraq işdən çıxarılıb. Səbəb nə idi?**

- Fərəh Əliyeva da, Ceyran Mahmudova da universitetə rektor təyin edilərkən sənətşünaslıq üzrə fəlsəfə doktoru idilər, doktor, professor adını və titulunu rektorluq fəaliyyətlərinə görə aldılar. Sualınıza gəlincə, mən də daxil olmaqla, Fərəh xanımın işdən çıxardığı müəllimlərin hamısının yeganə suçu T.Əfəndiyevin kadrları olmağımızdır. Bu, birmənalı olaraq, belədir. Fərəh xanım rektor olduqdan sonra bu ali məktəbdə tamam fərqli bir mühit yaratdı, burada müəyyən qruplaşma formalaşdırdı. Demirəm Timuçi müəllimin vaxtında problem yox idi, var idi. Lakin onun rektorluğu vaxtında həm də burada gözəl bir mədəni mühit vardı.

***İradə SARIYEVA***

# "Kontakt Home"un iki kampaniyasına "qeyri-şəffaflıq ittihamı" - şirkətin öz reaksiyası...

**"Kontakt Home" mağazalar şəbəkəsinin tələbələrlə bağlı apardığı kampaniyasından narazılıqlar var. Bildirilir ki, şirkət bu məqsədlə yaydığı məlumatda "İstər Bakı, istərsə də bölgə qeydiyyatlı hər tələbə, sadəcə, tələbə bileti və şəxsiyyət vəsiqəsi ilə "Kontakt Home" mağazalar şəbəkəsinin istənilən filialından 1200 manatadək ilkin ödənişsiz nisyə məhsul ala bilər", - vurğusunu xüsusi qeyd etsə də, əslində, bu, hər tələbəyə aid deyil.**

Bununla bağlı şikayətlərini sosial media vasitəsilə ictimailəşdirən tələbələr bildirirlər ki, sentyabrın 4-də "Kontakt Home"un "xüsusi kampaniya"sına inanıb, "28 Moll"la üzbəüz yerləşən filialdan telefon almaq istəyiblər: "Əvvəla şirkət tamamilə qanunsuz reklam kampaniyası aparır. Diqqət etmisinizsə, onların reklam roliklərinin üz qabığında "hər tələbəyə 1200 manat ayırırıq" ştrixti var. Bunlar bank deyil, bankir deyil ki, pul ayırsın. "Reklam haqqında" Qanuna görə, reklamın mahiyyəti aldadıcı deyil, aydın olmalıdır. Yəni bunlar açıq bəyan etməlidirlər ki, tələbələrə 1200 manatlıq məhsul verə bilərik və s.

Digər yandan, bunlar əvvəldən açıq bəyan etməlidirlər ki, biz 4-cü kursda, yaxud qiyabi təhsil alanlara məhsul vermirik. Tələbələr bunu bilsə, heç vaxt itirib, mağazalara getməzlər. Necə ki, mən itirdim. Orada mənə dedilər ki, sənə düşmür. Gah dedilər sən qiyabisən, gah da dedilər 4-cü kursda oxuyursan. Halbuki, 3-cü kursu bitirsəm də, 4-cü kursun dərsləri heç başlamayıb. İkincisi, mən 12 aylıq deyil, 6 aylıq kreditə telefonu götürmək istəyirdim. Amma sonda da dedilər ki, qiyabilərə, ümumiyyətlə, vermirik. Bakı qeydiyyatı və ev nömrəsi olan adam gətirim, onun adına versinlər. Sözüm odur ki, indi elə kampaniya aparırlar ki, guya bunların tələbələrə canı yanır". Tələbə deyir ki, dostu oradan telefon alan zaman da maraqlı faktla üzləşiblər: "Baxın, dostum oradan əvvəl də kreditə məhsul alıb, hətta vaxtından əvvəl birinin ödənişini bitirib, digərini də vaxtlı-vaxtında ödəyir. Lakin bu dəfə yeni telefon götürmək istəyəndə, ona deyiblər ki, ilkin ödəniş etməlisən. Halbuki, hər yerdə "ilkin ödənişsiz, faizsiz telefonlar", - deyə haray salıblar. Nə isə. Aydın olub ki, ikinci telefon üçün 25 manat ödəniş + 20 manatlıq da telefona proqram yazılmalıdır".

Qeyd edək ki, "Kontakt Home" mağazalar şəbəkəsinin başqa bir reklamının da olduğu barədə məlumat almışıq. Oxucular deyirlər ki, şəbəkə köhnə noutbukların mağazaya verilməsini əhalidən xahiş edir. Bildirilir ki, həmin cihazlar təmir olunduqdan sonra ölkənin ucqar rayonlarında




kı ehtiyacı olan insanlara təmənnasız verilir. Vətəndaşlar maraqlanırlar ki, bunun müqabilində köhnə avadanlıqları təqdim edən şəxsə hansısa ödəniş və ya yeni mal əldə edəcəyi təqdirdə güzəşt edilirmi?

Biz "Kontakt Home" şəbəkəsi ilə əlaqə saxladıq. Şikayətlər və təkliflər şöbəsinin məsul əməkdaşı Fəridə Rzayeva "Bakı-Xəbər"ə bildirdi ki, birinci halda söhbət "bək tu skul" "məktəbə qayıdış" kampaniyasından gedir: "Şikayətlərə fərdi qaydada yanaşılır. Əgər kiminsə konkret şikayəti varsa, istənilən filialımıza müraciət edib, bunu dəqiqləşdirə bilər. Ümumən isə həmin kampaniya ilə bağlı verilən məlumatların hamısına əməl olunur. Məsələn, əlavə ödənişlə bağlı deyə bilərəm ki, eyni telefondan ikinci dəfə alınırsa və birinci telefonun dəyərinin 30 faizi ödənilibsə, onda ilkin ödəniş tələb edilmir. Bu olmayıbsa, ilkin ödəniş tələb oluna bilər. Proqram yazılması isə müştərinin istəyinə bağlıdır. İstəsə bunu edə bilər, istəsə kənarda elətdirər. Başqa yerdə də bu xidmətdən pul alırlar. Həmin kampaniyadan yararlanmaq üçün müəyyən olunan kriteriyalara uyğun gəlinməlidir. Ancaq hansısa tələbənin neçənci kursda oxuması önəmli deyil. Burada nəsə yanlışlıq olub. Köhnə noutbukların yığılıb təmir edildikdən sonra əyalətlərə göndərilməsi ilə bağlı isə şirkətimiz tərəfindən heç bir kampaniya aparılmır. Ola bilər ki, bu məsələdə bizi hansısa şirkətlə dəyişik salırlar. Bir daha qeyd edirəm ki, kimsə ?lan olunan kampaniya ilə bağlı hansısa qanunsuzluqla rastlaşıbsa, buyurub "qaynar xətt"imizə müraciət edə bilər. Kampaniyada nəzərdə tutulmayan detalları isə biz şirkət olaraq təqdim edə bilmirik".

*Məhəmmədəli QƏRİBLİ*

# Şəriət necə baxır - Məhərrəmlikdə gözəllik salonları aşıb-daşır...

**Məhərrəm ayı Hicri-qəməri ilinin ayları arasında müqəddəs aylardan biridir. Bu ay Həzrət Peyğəmbərin buyurduğu kimi, müharibələrin qadağan olunduğu aylardan biridir. Qeyd etdiyimiz kimi, Məhərrəm ayı haram aylardan hesab olunur.**

*"Məhərrəm ayı elimizdə-obamızda Kərbəla şəhidlərinin xatirəsinə uzun əsrlərdir matəm ayı kimi qeyd edilir"*

Bu aylarda vuruşlar, savaşlar qadağan olunub. Bu ayda, birmənalı olaraq, toy məclislərinin olması yasaq və qadağandır. Bundan əlavə, həm də böyük günahdır.

İllər öncə qadınlar Məhərrəm ayında gözəllik salonuna getməzdi. Bu ayda qadınlar nə saçlarına rəng, nə də formaya salardılar. Ancaq indi vəziyyət dəyişib. Qadınlar Məhərrəm ayında gözəllik salonuna gedib, istədikləri proseduru həyata keçirirlər.

İlahiyyatçı Cəmşid Əliyev bizimlə söhbətində bildirdi ki, Məhərrəm ayı elimizdə-obamızda Kərbəla şəhidlərinin xatirəsinə uzun əsrlərdir matəm ayı kimi qeyd edilir. Bu ayda şənlik mərasimləri keçirmək məsləhət deyil: "Məhərrəm ayında, bütün digər aylarda olduğu kimi, saça boya qoymaq və saç kəsdirmək olar. Bunda heç bir problem yoxdur. Dinimizdə Məhərrəm ayı ilə bağlı belə bir məhdudiyyət yoxdur. Əksinə, dinimiz gözəlliyi, təmizliyi sevir və təqdir edir".

Həmsöhbətimiz onu da vurğuladı ki, Azərbaycan xalqı əsrlərdir peyğəmbərimizə, onun tərəfdaşlarına, əhli-beytinə hörmət və ehtiramla yanaşıb. Bəlkə də bu, bizə İlahinin lütfüdür ki, ölkəmizdə Peyğəmbər sevgisi, əhli-beyt sevgisi xalqımızın ortaq dəyərinə çevrilib. Bu dəyərin mühafizəsi, eyni zamanda, ölkəmizdə birlik və

***Cəmşid Əliyev:** "Məhərrəm ayında, bütün digər aylarda olduğu kimi, saça boya qoymaq və saç kəsdirmək olar"*



bərabərliyin, tolerantlığın qorunmasına xidmət göstərir. Azərbaycanda sevgili Peyğəmbərimizə, onun əhli-beytinə ən böyük ehtiramı xalqımızla bərabər, dövlətimiz də yerinə yetirir.

İnsanlar Məhərrəm ayında yaxşılıqlara dəvət olunmalıdırlar. Pisliklərdən qorunmalıdırlar. Məhz İmam Hüseynin Kərbəla şüarı bu olub - kin-küdurət olmaz. Bu ayda insanlar mənəviyyatını təmizləməlidirlər. Xəstələrə baş çəkməli, ehtiyacı olan insanların ehtiyacları təmin olunmalıdır".

*Günel CƏLİLOVA*

№ 163 (4061) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

14-16 SENTYABR 2019-cu il

www.baki-xeber.com

## "Bakcell" və "ASAN könüllüləri" növbəti dəfə uşaqları sevindirdilər

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti növbəti dəfə "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" layihəsinin təşəbbüsündə iştirak edib.**

Təşəbbüs çərçivəsində "ASAN Könüllüləri" Təşkilatı və "Bakcell" şirkətinin əməkdaşlığı, "Məktəblinin dostu" layihəsinin tərəfdaşlığı ilə xüsusi aksiya təşkil olunub. "Bilik Günü" münasibətilə keçirilmiş bu aksiyanın əsas məqsədi yeni tədris ilinin başlaması ilə əlaqədar olaraq həssas qruplara aid uşaqları sevindirmək, onların arzu və istəklərini reallaşdırmaqdır. "Bakcell" nümayəndələri və ASAN könüllülərinin iştirakı ilə keçirilmiş xüsusi tədbirdə 284 nömrəli məktəbdə təhsil alan 25 şagirdə "Bakcell"dən məktəbli çantaları və digər məktəb ləvazimatları hədiyyə edilib. "ASAN Məktub" layihəsinin əsas məqsədi həssas qruplara aid olan uşaqlara sevinc bəxş etmək və cəmiyyətdə sosial məsuliyyət və qayğı hissini daha da artırmaqdır. Uşaqların saf arzularını reallığa çevirən "ASAN Məktub" layihəsi 14 yaşadək olan uşaqları əhatə edir. Layihə çərçivəsində uşaqların məktubları www.asanmektub.az saytına yerləşdirilir və onların istəkləri müxtəlif şirkətlər və xeyirxah vətəndaşlar tərəfindən gerçəyə çevrilir. "Bakcell" şirkəti layihəyə, həmçinin, mobil rabitə dəstəyi göstərir. "Bakcell" şirkəti xüsusi qayğıya ehtiyacı olan və həssas qruplara aid uşaqlara dəstək göstərilməsi, onlar üçün bərabər hüquqların, inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihədə fəal iştirak edərək minlərlə uşağa dəstək göstərir. "ASAN Məktub" layihəsi ilə tərəfdaşlıq "Bakcell" şirkətinə uşaqları sevindirmək və onların saf arzularını həyata keçirmək üçün daha böyük imkan yaradıb.

## Elan

Azərbaycan Vəkillər Kollegiyası tərəfindən 06.06.2018-ci il tarixdə vəkil Əsədov Anar Əsədulla oğlunun adına verilmiş 1161 saylı Kollegiya üzvlüyü vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Şəki rayonu, Zunud kənd sakini Baxışov Mübariz Ənsari oğlunun adına verilmiş JN: 156 A saylı torpaq mülkiyyətinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

---

Şəki şəhərində fəaliyyət göstərən "Səadət" MMC-yə məxsus nizamnamə və dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN: 3000061451) itdiyi üçün etibarsız sayılır.

---

Əliyev Pərvaz Tahir oğlunun adına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

---

Xanməmmədov Rauf Vaqif oğluna Sumqayıt Hərbi Komissarlığı tərəfindən verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.

---

Yaqublu Mustafa Xaləddin oğluna Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

Məmmədova Məhsəti Sədir qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi, 758-759-cu məhəllədə yerləşən "Qız Qalası" MTK tərəfindən inşa edilən binanın 1-ci girişi 16-cı mərtəbə, mənzil 43 ünvanına "Qız Qalası" MTK tərəfindən verilmiş maliyyə arayışı və müqavilə itdiyi üçün etibarsız sayılır.

---

Məsumov Seyfəl Mansur oğlunun adına, Xəzər rayonu, Zirə qəsəbəsində yerləşən 0,12 hektar torpaq sahəsinin 411/2 №li bağ sahəsinin orderi itdiyi üçün etibarsız sayılır.

---

Əhmədova Fatma Əliağa qızının adına Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi 758-759-cu məhəllədə "Qız Qalası" MTK tərəfindən inşa edilən binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahəsinə "Qız Qalası" MTK tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır.

## "Azercell"in dəstəklədiyi "Uşaq Qaynar Xətt" xidmətinə yay ayları ərzində 1547 müraciət daxil olub

**Azərbaycanın lider mobil operatoru "Azercell Telekom" MMC-nin dəstəyilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidməti iyun, iyul və avqust ayları üçün hesabatını açıqlayıb.**

Məqsədi uşaqlara ilkin psixoloji yardımın, emosional dəstəyin, müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, reabilitasiya mərkəzlərinə və digər xidmətlərə yönləndirmə və təxirəsalınmaz köməyin göstərilməsi olan "Uşaq Qaynar Xətt" xidmətinə 2019-cu ilin iyun-avqust aylarında 1547 müraciət daxil olub. Daxil olan zənglərin 89-u psixoloji, 194-ü hüquqi, 901-i təhsil, 80-i səhiyyə, 125-i sosial, 158-i isə digər məsələlərə aiddir. Müraciətlərin 1440-ı 18 yaşdan yuxarı, 107-si isə 18 yaşdan aşağı şəxslər tərəfindən edilib.

Qeyd edək ki, "Uşaq Qaynar Xətt" xidmətinə zənglər əsasən ailə üzvləri, müəllimləri və yaşıdları tərəfindən təzyiqə məruz qalan, boşanma nəticəsində valideynlərindən biri ilə ünsiyyətdən qismən məhrum olan uşaqlar tərəfindən daxil olur. Xatırladaq ki, öz Korporativ Sosial Məsuliyyət strategiyası çərçivəsində daim qayğıya ehtiyac olan uşaqlar üçün layihələr ilə seçilən "Azercell" şirkəti 2018-ci ilin iyun ayının 13-dən etibarən "Uşaq Qaynar Xətt" xidmətinin Göygöl ofisini istifadəyə təqdim edib. Mərkəz Göygöl rayonunun sakinləri ilə yanaşı, ətraf rayonlarda (Goranboy, Gəncə, Şəmkir, Qazax, Ağstafa) yaşayan uşaqlara da xidmət göstərir.

"Azercell Telekom"un dəstəyi, "Ümidli Gələcək İctimai Birliyi"nin təşkilatçılığı ilə 24/7 rejimdə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə həm şəhərdaxili, həm də "Azercell" nömrələrindən edilən zənglər ödənişsizdir. (012) 480 22 80, (050) 680 22 80, (051) 880 11 80, (051) 880 22 80 və (051) 580 22 80 nömrələri ilə günün istənilən saatında "Qaynar Xətt" Xidmətinə müraciət etmək imkanı yaradılıb. Həmçinin,"Uşaq Qaynar Xətt"inin dünyanın istənilən nöqtəsində əlçatan olmasını təmin etmək üçün "Azercell" şirkətinin təşəbbüsü və dəstəyilə 2017-ci ildə xidmətin IOS və Android əməliyyat sistemlərini dəstəkləyən mobil tətbiqi istifadəyə verilib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

---

## Sosial şəbəkədən çox istifadə edənlər üçün "Nar"dan əla fürsət!

**İnternet və sosial şəbəkədən çox istifadə edənlər üçün ən sərfəli tarif sayılan "CavanNar"a qoşulanların sayı artmaqdadır.**

Belə ki, son 1 ayda ikiqat internetdən yararlanmaq imkanı verən "CavanNar" istifadəçilərinin sayı 17% artıb. Qeyd edək ki, "CavanNar 9" abunəçilərə aylıq 9 AZN ödəməklə 5 GB internet, 5GB sosial şəbəkə və 500 tarifdaxili dəqiqə verir. "CavanNar 6" isə 6 AZN ödəməklə 2 GB internet, 2GB sosial şəbəkə və 200 dəqiqə tarifdaxili danışıq verir. Tariflərə istənilən yaş qrupuna aid insanlar qoşula bilərlər.

Hər zaman müştərilərinin tələblərini nəzərə alan "Nar" "CavanNar" tarifi üçün təkliflərini daha da artırıb. Belə ki, artıq "CavanNar" abunəçilərinə əlavə internet paketləri sifariş etmək imkanı verir. İstifadəçilər tələblərinə uyğun olaraq 500 MB və ya 1GB əldə edə bilərlər. Əlavə internet paketlərini aktivləşdirmək üçün müvafiq olaraq *777#2#YES (500MB) və *777#4#YES (1GB) kodlarını yığmaq lazımdır. Eyni əməliyyatı daha asan və qısa zamanda həyata keçirmək üçün yeni istifadəyə verilmiş "Nar+" mobil tətbiqindən də yararlanmaq mümkündür. Qeyd edək ki, əlavə internet paketlərindən aylıq abunə haqqını ödədikdən sonra istifadə etmək olar.

"CavanNar" paketləri haqqında daha ətraflı məlumatı nar.az səhifəsindən əldə etmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,5 %-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8000-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Bu gün yarana biləcək istənilən mürəkkəb situasiyalardan mütləq çıxış yolu tapacaqsınız. Əsla gözləmədiyiniz köməkçi və yardımçılar qəflətən peyda ola bilərlər. Planlaşdırılmamış gəlirlər də mümkündür.



**Buğa** - Ətrafınızdakı insanlara qəribə və mənasız təsir bağışlayan qərarlar qəbul edəcəksiniz. Amma hər şeyə rəğmən məqsədə doğru irəliləyirsiniz. Tənqidlər və məsləhətlər sizi yolunuzdan sapdırmayacaq.



**Əkizlər** - Xasiyyətinizin ən yaxşı məqamları bu gün daha qabarıq görünəcək. Bu gün hamının xoşuna gələcəksiniz. Lakin bu gün rəğbət bəslədiyiniz adamların az sonra bəzilərinin sizə xəyanətidə istisna deyil.



**Xərçəng** - İntellektual iş üçün uğurlu gündür. Gəldiyiniz nəticələr paradoksal da olsa, doğrudur. Müşahidələriniz sizi aldatmayacaq. Uzun müddətdən bəri dil tapa bilmədiyiniz adamla bu gün razılığa gələ biləcəksiniz.



**Şir** - Çoxdan bəri kiminləsə mübahisə etmək istəyirdinizsə, istəyinizi bu gün gerçəkləşdirin. Opponentinizi "məğlub" etmək və özünüzə inandırmaq üçün bütün şanslarınız var. Şəxsi məsələlərdə gün neytral olacaq.



**Qız** - İstənilən yeniliklər və eksperimentlər üçün əla gündür. Yeni müttəfiqlər tapacaqsınız. Hətta, əvvəllər tərəfinizdə olmayan insanlar belə arqumentlərinizin səhihliyini dana bilməyəcəklər.



**Tərəzi** - Gün asan olmasa da, baş verəcək hadisələr xeyrinizə ola bilər. Səhvlərdən nəticə çıxarmaq və başqalarının təcrübəsini təhlil etmək çox mühümdür. Mühüm qərarları təkbaşına qəbul etmək istəsəniz də, təcrübəli insanların məsləhətlərinə qulaq asın.



**Əqrəb** - Bu gün diqqət mərkəzində olmağa çalışın. Nə qədər çox diqqət cəlb etsəniz, bir o qədər yaxşıdır. Fəqət, qarşınıza qoyduğunuz işi görməkdə sizə yardım edəcək insanlar daha vacibdir.



**Oxatan** - Gün maraqlı məşğuliyyət, həlli maraqlı işə çevrilə biləcək məsələlərlə zəngin ola bilər. Qarşınıza qoyduğunuz məqsədə tez çatacaqsınız. Yeni tanışlarla asanlıqla dil tapacaqsınız.



**Oğlaq** - Eksperiment və qeyri-standart qərarlara hazır insanlarla ideyalarınızı bölüşsəniz, gün sizə yeni imkanlar vəd edir. Bu gün müttəfiq axtarışları ilə məşğul olun. Deyilənləri ürəyinizə salmayın.



**Dolça** - Aşkar və qaçılmaz sandığınız qərarların heç də hamısı doğru, vaxtında atılacaq addımlar deyil. Bunu əla anlayırsınız, amma ətrafınızdakı adamlar razı deyillər. Onların fikirlərini dəyişmək üçün xeyli vaxt sərf etməli olacaqsınız.



**Balıqlar** - Kiçik problemlər və ətrafdakı insanlarla müəyyən anlaşılmazlıqlara rəğmən sakit olun, kefinizi pozmayın. Bədxahlar sizə ziyan vura bilməyəcəklərini anlasalar da, niyyətlərindən əl çəkmirlər.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Arktikada yeni ada və boğaz tapıldı



**Rusiya ekspediyası Frans-İosif Torpağında ümumi sahəsi 200 kv.km-ə yaxın olan ada və boğaz aşkarlayıb.**

"Qafqazinfo" xəbər verir ki, bu barədə "RİA Novosti" donanmanın nümayəndəsi Vadim Serqaya istinadən yazıb. "Yeni subyektlər xəritədə qeyd edilib, məlumatlar dənizçilərə çatdırılacaq, daha sonra bütün rəsmi xəritərələrə düzəlişlər ediləcək", - Şimal donanmasından bildirilib. Rusiya araşdırmaçıları hesab edir ki, yeni adaya ad verilməsi zəruri deyil. Bununla bərabər, onlar boğaza ad seçilməsi ilə bağlı müsabiqə keçirməyi planlaşdırır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.